Təhsil millətin gələcəyidir!
Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

29 noyabr 2025-ci il | №45 (9151) | www.muallim.edu.az | muallim@media.edu.az

## Emin Əmrullayev QS Avrasiya Forumunda çıxış edib




Elm və təhsil naziri Emin Əmrullayev çıxışı zamanı ölkəmizdə beynəlmiləlləşmə və elmi-tədqiqat imkanları barədə məlumat verib, o cümlədən ali təhsil müəssisələrinin qlobal rəqabət qabiliyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirləri qeyd edib.

Bax səh. 3

# TƏHSİLƏ DİQQƏT, UŞAQLARA SEVGİ



## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Lənkəranda internat məktəbində olub

## Zəfərin intellektual davamı və dirçəliş missiyasına xidmət




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə Qarabağ Universitetinin yaradılmasından iki il ötür. Qarabağ Universitetinin yaradılması 2020-ci ildəki 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirləri nəticəsində bərpa edilmiş ərazi bütövlüyümüzün və suverenliyimizin təmin etdiyi yeni dövrün və yeni reallıqların rəmzlərindən biridir.

Bax səh. 4

# Çevik və inklüziv öyrənmə imkanları

## Məktəblilərin ingilis dilini öyrənməsini dəstəkləyən yeni rəqəmsal məzmunun təqdimatı olub



Layihə "LANDAU Educational Technologies" MMC ilə əməkdaşlıqda həyata keçirilib. Layihədə əsas məqsəd 9 və 11-ci sinif ingilis dili buraxılış imtahanlarına hazırlaşan şagird və müəllimləri dəstəkləmək olsa da, təqdim olunan yüksək keyfiyyətli və əlçatan rəqəmsal məzmun 5—11-ci siniflərin bütün şagirdlərinin istifadəsi üçün uyğundur. Layihənin yeni mərhələsi 60 saatlıq dərs müddətinə uyğun 350 tədris videosu, imtahana hazırlıq üçün 14000 sualdan ibarət sual bankı, imtahan şəraitini simulyasiya etmək üçün 70 test toplusu, tədris prosesində müəllimlərə kömək məqsədilə hazırlanmış təqdimatlar və iş vərəqləri, həmçinin müəllimlərin ev tapşırıqları verməsinə və şagirdlərin irəliləyişini izləməsinə imkan verən rəqəmsal platforma kimi geniş əhatəli materiallar təqdim edir. Ölkə üzrə 500 müəllimin və 10000 şagirdin layihədən bəhrələnəcəyi gözlənilir.

Bax səh. 5

## "Süni intellektdən istifadə edərək biotibb sahəsində daha çox işləməliyik"



"Türkiyə olaraq, işlənməmiş, bizi gözləyən böyük bir xəzinəmiz var, elektron impuls məlumatları. Bu illər ərzində toplanan milyonlarla insanın tibbi məlumatları var. Bu, dünyada analoqu olmayan bir məlumat toplusudur. Ancaq bu məlumatlar xam şəklində kifayət qədər fayda vermir".

Bax səh. 5

## Tam ştatlı müəllimlər dərsdən sonra nə ilə məşğul olacaqlar?



"Yeni modelə əsasən, müəllimlər həftəlik 30-36 saat işləyəcəklər. Bu vaxtın 18-24 saatını tədrislə məşğul olacaqlar. İş günü ilə tədris saatının vaxt fərqi 12 saat edir. Həmin müddət ərzində müəllim tədrisdən əlavə pedaqoji işlərlə məşğul ola bilər.

Bax səh. 7

## "Təhsil sistemində keyfiyyətin əsas təminat mexanizmi müəllimin peşəkarlığıdır"



Son illər aparılan təhsil islahatları, yeni kurikulumların tətbiqi, rəqəmsal resursların genişlənməsi, şagirdyönümlü yanaşma və inklüziv təhsilin inkişafı göstərir ki, tədrisin səmərəliliyi müəllimin bilik və bacarıqlarından birbaşa asılıdır.

Bax səh. 7

## Şahmat üzrə millimiz ilk dəfə dünya çempionatında gümüş medal qazanıb



Azərbaycanın qadın şahmatçılardan ibarət millisi İspaniyanın Linares şəhərində təşkil olunan dünya çempionatında ikinci olub. İndiyədək kişi və qadın şahmat komandalarımız dünya çempionatında medal qazanmayıb. Bu, tarixi nəticədir.

Bax səh. 8

# TƏHSİLƏ DİQQƏT, UŞAQLARA SEVGİ







## Heydər Əliyev Fondu Lənkəranda uşaq evini əsaslı yenidənqurmadan sonra istifadəyə verib

Lənkəran şəhər Osman Mirzəyev adına 5 saylı uşaq evi sosial xidmət müəssisəsinin yerləşdiyi bina Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilib. Noyabrın 21-də uşaq evinin binasının təmirdən sonra açılışı olub.

“Azərbaycan müəllimi” AZƏRTAC-a istinadən xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Bildirilib ki, Lənkəranda 1941-ci ildən fəaliyyət göstərən 5 saylı uşaq evi sosial xidmət müəssisəsinin binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü. 2024-cü ildə uşaq evi sosial xidmət müəssisəsinin binasının əsaslı təmir işlərinə başlanılıb.

Bina 1 və 2 mərtəbəli 5 korpusdan ibarətdir. Sosial xidmət müəssisəsində kiçik və böyük yaş qrupları üzrə 120 uşaq yerləşib. Binada sinif, informatika, tikiş və xalçaçılıq, rəqs və musiqi otaqları, emalatxana yaradılıb. Sosial xidmət müəssisəsi zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri əyani vəsaitlərlə təchiz edilib.

Burada istirahət və tibb otaqları, qarderob, kitabxana, oxu zalı, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası yaradılıb. Eləcə də oyun attraksionları ilə təmin olunan meydança inşa edilib.

Sosial xidmət müəssisəsinin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Lənkəranda internat məktəbində olub

Noyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva Lənkəran şəhəri Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində olublar.

Əvvəlcə məktəbin şagird və müəllimləri ilə birlikdə tarixi Zəfərin 5 illiyinə həsr olunmuş əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Sonra sinif otaqlarında, məşğələ və istirahət otağında uşaqların asudə vaxtının səmərəli təşkili prosesləri izlənilib.

Qeyd edək ki, regional xarakter daşıyan və cənub bölgəsində yeganə olan Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində autizm və Daun sindromlu, o cümlədən əqli inkişafdan geri qalan uşaqların mütəxəssislər tərəfindən həm təhsil almaları, həm də reabilitasiya prosesi təmin edilir. Həmin uşaqların məktəbdə qalması üçün də şərait yaradılıb ki, 34 uşaq bu imkandan yararlanır.

## Leyla Əliyeva və Alena Əliyeva LDU-nun nəzdində yaradılmış Baytarlıq Klinikası ilə tanış olublar

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alena Əliyeva Lənkəran Dövlət Universitetinin nəzdində yaradılmış Baytarlıq Klinikası ilə tanış olublar.

Yeni istifadəyə verilmiş klinikada heyvanların müayinəsi və müalicəsi üçün nəzərdə tutulmuş kabinetlər, laboratoriyalar və müasir tibbi avadanlıqlar barədə məlumat verilib. Qeyd edilib ki, klinika həm regionda ev və çöl (vəhşi) heyvanlarının sağlamlığının qorunmasına xidmət edir, həm də universitetin “Baytarlıq” ixtisasında təhsil alan tələbələr üçün praktiki vərdişlərin formalaşdırılması baxımından mühüm tədris bazası rolunu oynayır. Leyla Əliyeva bu ixtisasda təhsil alan tələbələr və müəllim heyəti ilə görüşüb, onların fikirlərini dinləyib, baytarlıq sahəsində kadr hazırlığı istiqamətində həyata keçirilən işlərlə yaxından tanış olub.

# “Yüksəliş” insan kapitalının gücləndirilməsində mühüm rol oynayır

## Elm və təhsil naziri beşinci “Yüksəliş” müsabiqəsinin qalibləri ilə görüşüb



Elm və təhsil naziri Emin Əmrullayev beşinci “Yüksəliş” müsabiqəsinin qalibləri ilə görüş keçirib. Görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, “Yüksəliş” müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva və gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev iştirak edib.

Görüşdə qaliblərin fəaliyyət istiqamətləri, fərdi inkişaf planlarının icrası, həmçinin dövlət idarəçiliyində yeni nəsil idarəçilərin roluna dair müzakirələr aparılıb.

Görüş zamanı qaliblərin həyata keçirdikləri layihələr, iştirak etdikləri təlimlər, əldə etdikləri bilik və bacarıqların tətbiqi üzrə görülən işlər barədə müzakirə aparılıb. Nazir qaliblərlə fikir mübadiləsi apararaq onların idarəetmə, liderlik və innovasiya sahəsindəki suallarını cavablandırıb.

Nazir çıxışında “Yüksəliş” müsabiqəsinin ölkənin insan kapitalının gücləndirilməsində mühüm rol oynadığını qeyd edib.

Görüş zamanı qaliblərin fərdi inkişaf planlarının icrasına dəstək mexanizmləri, müxtəlif dövlət qurumlarında təcrübə proqramları, həmçinin idarəetmədə çevik qərarvermə, strategiya qurma və dəyişikliklərin idarə edilməsi kimi mövzularda təcrübə mübadiləsi aparılıb.

Sonda qaliblər göstərilən diqqət və yaradılan imkanlara görə minnətdarlıqlarını bildirərək əldə etdikləri bilik və bacarıqları fəaliyyətdə tətbiq etməyə davam edəcəklərini vurğulayıblar.

## Nazir Türkiyənin Ali Təhsildə Keyfiyyət Təminatı Şurasının sədri ilə görüşüb

Noyabrın 27-də elm və təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Ali Təhsildə Keyfiyyət Təminatı Şurasının (YÖKAK) sədri Ümit Kocabıçak ilə görüşüb. Görüş çərçivəsində akkreditasiya qiymətləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.



## Naxçıvanda “İnteraktiv təhsil yardımı” layihəsinin təqdimatı keçirilib




Noyabrın 28-də Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Ticarət Nazirliyi arasında imzalanmış Naxçıvan Muxtar Respublikasına “İnteraktiv təhsil yardımı” layihəsinin təqdimatı və təhvil-təslim mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, elm və təhsil naziri Emin Əmrullayev, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov dövlət başçısının rəhbərliyi və xüsusi qayğısı ilə ölkəmizdə təhsilin hərtərəfli inkişafı istiqamətində genişmiqyaslı işlərin aparıldığını diqqətə çatdırıb, bu işlərin Naxçıvan Muxtar Respublikasında da uğurla icra olunduğunu vurğulayıb. Səlahiyyətli nümayəndə qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda təhsilin inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib və bu sahədə çoxsaylı layihələr icra olunur.

Ceyhun Cəlilov Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında inkişaf edən əməkdaşlıq çərçivəsində reallaşdırılan layihənin muxtar respublikanın təhsil müəssisələrində interaktiv tədrisin təşkili və təhsilalanların bacarıqlarının artırılmasında mühüm rol oynayacağına əminliyini bildirib, layihənin icrasında əməyi keçən hər kəsə təşəkkür edib.

Elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan-Çin əlaqələrinin inkişafı fonunda elm və təhsil sahəsində də əlaqələrin dərinləşdiyini vurğulayıb. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına sonuncu səfərini xatırladan nazir bildirib ki, səfər çərçivəsində digər istiqamətlərlə yanaşı, elm və texnologiya sahələrində əməkdaşlıq haqqında protokol imzalanıb. Bu əlaqələrin tərkib hissəsi olaraq “İnteraktiv təhsil yardımı” layihəsinin icra olunması ölkəmizdə bu sahədə qabaqcıllar sırasında olan Naxçıvan Muxtar Respublikasında təhsilin innovativ əsasda daha intensiv inkişafına şərait yaradacaq.

Səfir Lu Mey bildirib ki, son illər iki ölkə liderlərinin qayğısı və strateji rəhbərliyi sayəsində Çin-Azərbaycan münasibətləri sürətlə inkişaf edir. Bu il Prezident cənab İlham Əliyevin Çinə iki rəsmi səfəri zamanı dövlət başçıları əlaqələrin “Hərtərəfli Strateji Tərəfdaşlıq” səviyyəsinə yüksəldiyini elan ediblər.

Vurğulanıb ki, “İnteraktiv təhsil yardımı” layihəsi Çin hökumətinin “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Strategiyasına və Elm və Təhsil Nazirliyinin rəqəmsal transformasiya planlarına dəstəyini göstərir. 2019-cu il hökumətlərarası razılaşmasından sonra hər iki tərəfin xüsusi diqqətində olan layihə bu gün uğurla tamamlanır.

Lu Mey Çin tərəfinin Naxçıvan Muxtar Respublikası ilə təhsil və rəqəmsal texnologiyalar sahəsində regional əməkdaşlığı bundan sonra da dəstəkləyəcəyini bildirib və layihənin uğurlu nəticələr verəcəyinə əminliyini ifadə edib.

Sonra “İnteraktiv təhsil yardımı” layihəsi barədə məlumat verilib. Qeyd edilib ki, layihə çərçivəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində data mərkəzi və idarəetmə otağı yaradılıb, nazirliyə tabe müəssisələrdə isə müvafiq texniki infrastruktur qurulmaqla vahid elektron platforma istifadəyə verilib. Data mərkəzi 4 hissədən ibarət olmaqla, 38 serverdən, soyutma və idarəetmə sistemindən ibarətdir. İnteraktiv qoşulmanın daha keyfiyyətli və operativ təşkili məqsədilə STEAM Mərkəzi və təhsil müəssisələrinin hər birində 2 smart lövhə quraşdırılıb, 2300 planşet şagirdlərin istifadəsinə verilib.




Tədbirdə nazirliyin idarəetmə otağı və STEAM Mərkəzinin imkanları nümayiş etdirilib, sistemə qoşulan təhsil müəssisələri arasında bağlantının monitorinqi aparılıb. Bildirilib ki, sistemə real vaxt rejimində və sonradan qoşulmaqla STEAM Mərkəzində keçirilən dərsləri izləmək mümkündür. Pilot layihə olaraq hazırda 24 təhsil müəssisəsi yeni elektron təhsil platformasına inteqrasiya olunub. Növbəti mərhələdə muxtar respublikanın digər təhsil müəssisələrinin də bu sistemə qoşulması nəzərdə tutulur.

Tədbirdə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Naxçıvan Muxtar Respublikasına “İnteraktiv təhsil yardımı” layihəsinə dair təhvil-təslim aktı imzalanıb.

Sonda xatirə fotosu çəkdirilib.

# ELM VƏ TƏHSİL NAZİRİ ÖZBƏKİSTANDA SƏFƏRDƏ OLUB





## Emin Əmrullayev Özbəkistanın məktəbəqədər və ümumi təhsil naziri və ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini ilə görüşüb

Özbəkistanın Daşkənd şəhərində "QS Avrasiya Forumu 2025" çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Özbəkistan Respublikasının məktəbəqədər və ümumi təhsil naziri Ezozxon Karimova ilə görüşüb.

Görüş zamanı məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf istiqamətləri müzakirə olunub.

Tərəflər təcrübə və məlumat mübadiləsinin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi, həmçinin məktəbəqədər və ümumi təhsil sisteminin müasirləşdirilməsi istiqamətində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

***

Elm və təhsil naziri Emin Əmrullayev Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Sardor Rəcəbov ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və ali təhsil və innovasiyalar sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

Eyni zamanda, görüş çərçivəsində Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Özbəkistan Respublikasının Ali Təhsil, Elm və İnnovasiyalar Nazirliyi yanında İnnovativ İnkişaf Agentliyi arasında elm və innovasiya sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb.

## Emin Əmrullayev QS Avrasiya Forumunda çıxış edib




Elm və təhsil naziri Emin Əmrullayev Özbəkistan Respublikasının Daşkənd şəhərində "Quacquarelli Symonds" (QS) qlobal reytinq agentliyinin təşkilatçılığı və Mərkəzi Asiya Universitetinin ev sahibliyi ilə keçirilən QS Avrasiya Forumunda çıxış edib.

Çıxış zamanı ölkəmizdə beynəlmiləlləşmə və elmi-tədqiqat imkanları barədə məlumat verilib, o cümlədən ali təhsil müəssisələrinin qlobal rəqabət qabiliyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər qeyd olunub.

Əlavə olaraq, forum çərçivəsində müvafiq sahə üzrə nazir və nazir müavinlərinin, o cümlədən qabaqcıl universitetlərin rəhbər heyətinin iştirakı ilə "dəyirmi masa" təşkil olunub.

"Dəyirmi masa" zamanı ali təhsil müəssisələrinin institusional fəaliyyət göstəriciləri, məşğulluq nəticələri, ali təhsildə dayanıqlılıq kimi mövzular ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, forumda həmçinin Azərbaycanın bir neçə qabaqcıl ali təhsil müəssisəsi nümayəndə heyəti ilə təmsil olunub.

## Azərbaycan ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılması istiqamətində əməkdaşlıq



### Emin Əmrullayev Mərkəzi Asiya Universitetinin rəhbər heyəti və QS prezidenti ilə görüşüb

Elm və təhsil naziri Emin Əmrullayev Özbəkistan Respublikasının Daşkənd şəhərinə səfəri çərçivəsində Mərkəzi Asiya Universitetini ziyarət edərək universitetin rəhbər heyəti və himayəçilər şurasının sədri Abducabar Abduvaxitov ilə görüşüb, eləcə də universitetin maddi-texniki bazası ilə tanış olub.

Eyni zamanda, səfər çərçivəsində "Quacquarelli Symonds" (QS) qlobal reytinq agentliyinin təsisçisi və prezidenti Nuntsio Kvakvarelli ilə də görüş keçirilib, Azərbaycan ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılması istiqamətində gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Naxçıvanda vətəndaşları qəbul edib







Noyabrın 28-də elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar xarici kvalifikasiyaların tanınması, iş yerinin dəyişdirilməsi, müəllimlərin işə qəbulu və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

## Elm və təhsil naziri Ağcabədidə vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 19 dekabr tarixində Ağcabədi şəhərində vətəndaşları qəbul edəcək. Qəbulda Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər, Bərdə, Ağdərə, Laçın, Kəlbəcər sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 10 dekabr (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

## Məktəblilərarası Milli Hakaton — 2025-in final mərhələsinə infotur təşkil olunub



Noyabrın 28-də "Məktəblilərarası Milli Hakaton — 2025" müsabiqəsinin final mərhələsi ilə yaxından tanış olmaq məqsədilə infotur təşkil olunub.

İnfoturda Elm və Təhsil Nazirliyi və tabe qurumların əməkdaşları, nazirlik yanında İctimai Şuranın üzvləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, təhsil mütəxəssisləri, özəl sektorların əməkdaşları, media nümayəndələri və influenserlər iştirak ediblər.

İnfotur iştirakçılarına komandaların qeydiyyatı, mərhələlər üzrə qiymətləndirmə prosesi, mentor dəstəyi və layihələrin hazırlanma qaydası barədə ətraflı məlumat verilib. İştirakçılar finala çıxan komandaların iş prosesini yaxından izləyərək yaradıcı mühitin və texnoloji təminatın necə tətbiq olunduğunu müşahidə ediblər.

Prosesi izləyən qonaqlar hakatonun müasir texnologiyalarla təşkil olunmasını, şəffaf və ictimaiyyətə açıq şəkildə keçirilməsini yüksək qiymətləndirərək bunun məktəblilər arasında innovativ düşüncənin və rəqəmsal bacarıqların inkişafına töhfə verdiyini bildiriblər.

Qeyd edək ki, finalda komandalar turizm, ekologiya, maliyyə, mədəniyyət və incəsənət üzrə layihələr hazırlayaraq veb-saytlar, mobil tətbiqlər və oyunlar təqdim edirlər. Proqramlaşdırma üzrə keçirilən müsabiqənin əsas məqsədi məktəblilər arasında rəqəmsal bacarıqların inkişafına dəstək olmaq, proqramlaşdırma sahəsində onların biliklərini artırmaq, IT üzrə istedadlı məktəbliləri müəyyən edərək onlar üçün gələcək inkişaf imkanları yaratmaqdır.

# QARABAĞ UNİVERSİTETİ

# Zəfərin intellektual davamı və dirçəliş missiyasına xidmət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə Qarabağ Universitetinin yaradılmasından iki il ötür. Bu iki il yalnız bir ali təhsil ocağının fəaliyyət dövrü deyil - qazanılmış tarixi Zəfərin elmi, mədəni və intellektual müstəvidə məntiqi davamıdır. Qarabağ Universitetinin yaradılması 2020-ci ildəki 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirləri nəticəsində bərpa edilmiş ərazi bütövlüyümüzün və suverenliyimizin təmin etdiyi yeni dövrün və yeni reallıqların rəmzlərindən biridir.

Təhsil ocağı işğaldan azad olunmuş ərazilərimizin dirçəlişinə yönəlmiş məqsədyönlü dövlət siyasətinin əhəmiyyətli dayaqlarından birini təşkil edir. Bu addım həm də Müzəffər Ali Baş Komandan İlham Əliyevin “Qarabağ Azərbaycandır!” ideyasının təhsil və elm müstəvisində gerçəkliyə çevrilməsinin aydın təzahürüdür. Bu gün Qarabağ Universitetinin auditoriyalarında, laboratoriyalarında, kampusunda, genişlənməkdə olan elm, təhsil və sosial ekosistemində yaradılan hər bir dəyər bu torpaqlarda həyatın bərpasına, yenilənməsinə və davamlı inkişafına əsaslanır.




**“Bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək, doğrudan da, böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**






Qarabağ Universitetinin yaradılması barədə qərarın qəbul edilməsi zamanı bu addımın sadəcə, yeni bir ali təhsil ocağının qurulmasından ibarət olmadığı hər kəsə məlum idi. Həmin qərar Qarabağın gələcək inkişaf modelini müəyyən edən mühüm strateji sənədlərdən biri hesab edilirdi. Bu sənəd azad edilmiş torpaqlarda həyatın bərpası ilə yanaşı, bölgənin intellektual potensialının formalaşdırılması üçün mühüm təməl yaratdı. Bu gün artıq iki ildən sonra, dövlətimizin yüksək diqqəti və dəstəyi sayəsində Qarabağ Universiteti Qarabağın dirçəlişində fəal iştirak edən və dinamik inkişaf edən qurumlarından birinə çevrilmişdir.

Qarabağda əldə edilmiş tarixi Zəfərdən sonra ölkəmiz qarşısında yeni mərhələ - azad edilmiş torpaqların yenidən qurulması, sosial-iqtisadi həyatın bərpası, regionun elm, təhsil və mədəniyyət mərkəzinə çevrilməsi kimi strateji vəzifələr dayanır. Universitetin yaradılması həmin vəzifələrin mərkəzində yer alan ən fundamental layihələrdən oldu. Bu ali məktəb dövlətin regionla bağlı orta və uzunmüddətli gələcəyə hesablanmış siyasətinin, Qarabağın intellektual kimliyinin, Zəfər ruhunun və azərbaycançılıq ideyasının daşıyıcısıdır.

Universitetin təsis olunması, ilk növbədə, Qarabağın bərpası və inkişafının biliklərə, elmə və müasir texnoloji yanaşmalara əsaslanmasının vacibliyini bir daha önə çıxarır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, azad edilmiş ərazilərdə qurulan yeni həyat müasir texnologiyalara, innovasiyalara, “ağıllı” konseptlərə əsaslanmalıdır. Bu baxımdan Qarabağ Universiteti bölgənin gələcək sosial-iqtisadi arxitekturasının elmi bazasının qurulmasına töhfə verməlidir. Ali məktəb həm yeni insan kapitalının yetişdirilməsi, həm də Qarabağda tətbiq olunacaq modern idarəetmə, planlaşdırma və inkişaf strategiyalarının elmi əsaslarla təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb etməlidir. Bu ali təhsil ocağı bölgənin yenidən qurulması prosesində intellektual mərkəz rolunu oynayaraq, Qarabağın gələcək iqtisadi, sosial və mədəni strukturunun formalaşmasında aparıcı subyektlərdən biri olmaq missiyasını yerinə yetirə bilməlidir.

Beləliklə, Qarabağ Universiteti dövlətimizin postkonflikt dövrü üçün müəyyən etdiyi yeni inkişaf fəlsəfəsinin həm ideoloji, həm də institusional təcəssümünə çevrilmişdir. Ali təhsil ocağı Qarabağda həyatın yenidən canlandırılmasına, azad olunmuş ərazilərdə tarixən mövcud olmuş təhsil ənənələrinin bərpasına, regionun dayanıqlı və uzunmüddətli inkişafını təmin edəcək kadrların hazırlanmasına, gənclərin Zəfər ruhu ilə formalaşmasına və Qarabağın hərtərəfli inkişafına töhfə verməyi hədəfləyən müasir akademik ekosistemin yaradılmasına xidmət edən milli əhəmiyyətli layihədir. Eyni zamanda universitet Qarabağda azərbaycançılıq ideyasının möhkəmləndirilməsinin, milli kimlik və dövlətçilik ənənələrinin elmi əsaslarla yaşadılmasının mühüm akademik platforması kimi çıxış edir.

Dövlət suverenliyinin bərpa edilməsindən düz bir il sonra bu ali təhsil müəssisəsinin müasir infrastrukturla, peşəkar heyətlə və yüzlərlə yüksəkballı tələbələrlə fəaliyyətə başlaması həm dövlətimizin gücünün təzahürlərindən biri, həm də tarixi Zəfərin növbəti təntənəsi olaraq dəyərləndirilməlidir. Bu, həm də tarixi Zəfəri yaşamış gənclərimizə məhz tarixi Zəfərin qazanıldığı məkanda ali təhsil almaq, layiqli vətəndaş və yüksəkixtisaslı kadr kimi yetişmək, eləcə də əzəli torpaqlarımızın bərpası və inkişafında pay sahibi olmaq üçün geniş imkanlar və fürsətlər qazandırır.

Bu kontekstdə təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və iştirakı ilə Qarabağ Universitetinin açılışı məhz 20 Sentyabr - Dövlət Suverenliyi Günündə baş tutdu. Dövlət başçımızın qeyd etdiyi kimi, “Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir”.

Həqiqətən də, belə əlamətdar tarixi gündə Qarabağ Universitetinin açılışının keçirilməsi hər birimizdə böyük sevinc və fəxarət hissləri yaradır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək, doğrudan da, böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz”.

Dövlət başçısının açılış tədbirində iştirakı, tədris binasında və yataqxanalarda mövcud şəraitlə tanış olması, tələbə və müəllim heyəti ilə görüşü və proqram xarakterli çıxışı doğma Xankəndidə qurulmuş bu ali təhsil müəssisəsinə göstərilən yüksək diqqətin bariz nümunələrindən olması ilə yanaşı, professor-müəllim və tələbə heyəti qarşısında olduqca böyük məsuliyyət və vəzifələr qoyur. Xüsusilə vurğulamaq lazımdır ki, açılış mərasimində dövlət başçımızın ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanan çıxışı zamanı səsləndirdiyi fikirlər Qarabağ Universitetinin yol xəritəsini formalaşdırdı. Prezident İlham Əliyevin universitetdə səsləndirdiyi “Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir” fikri artıq təhsil ocağının əsas strateji devizi və inkişaf yolunun istiqamətverici prinsipinə çevrilmişdir. Təqdirəlayiq haldır ki, qarşıya qoyulan bu hədəfə nail olmaq üçün dövlətimiz tərəfindən həm maddi infrastruktur, həm də məzmun baxımından bütün imkanlar təmin edilir və yüksək dəstək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirakı bu yüksək diqqət və dəstəyin bariz nümunələrindəndir.

## İki ildə əldə olunmuş nəticələr və dinamik inkişaf

İki il ərzində Qarabağ Universitetində görülən işlərin miqyası regionun dirçəlişinin ümumi tempinə uyğun olaraq geniş və çoxşaxəlidir. Xankəndi şəhərində yerləşən universitetin kampusu qısa müddətdə infrastrukturla təmin, üç tədris binası müasir avadanlıqlarla təchiz edilmişdir. Müasir laboratoriyalar, zəngin kitabxana fondu, tələbə və müəllim yaşayış binaları, həmçinin təhlükəsiz, rahat və yaşıl kampus məkanının yaradılması Qarabağ Universitetinin yüksək standartlara uyğun fəaliyyətinə xidmət göstərir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2025-ci il tarixli Fərmanına əsasən, Qarabağ Universitetinin tabeliyində “Qarabağ Universitetinin Klinikası” publik hüquqi şəxs yaradılıb. Klinikanın Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin etməsi, tibb sahəsində elmi tədqiqatlar aparması, regionda əhalinin sağlamlığının qorunmasında iştirak etməsi nəzərdə tutulub.

Xankəndi artıq tədricən tələbə şəhərinə çevrilir - elm, gənclik və həyat enerjisi ilə dolu müasir bir məkana. Hazırda universitetdə 1024 tələbə birinci, 1068 tələbə ikinci, 60 SABAH qrupu tələbəsi isə üçüncü tədris ilində olmaqla, ümumilikdə, 7 fakültə və 34 ixtisas üzrə 2152 tələbə təhsil alır. Təqdirəlayiq haldır ki, təhsil ocağının qısa müddətdə qazandığı nüfuz abituriyentlərin seçimlərində də öz əksini tapır. Hər iki tədris ili üzrə qəbul imtahanlarında yüksək nəticələr göstərən gənclər Qarabağ Universitetini seçiblər. 228 tələbə 600 və daha çox, 717 tələbə 500 və daha çox, 1342 tələbə isə 400-dən çox bal toplayıb. Ən yüksək nəticə 684 balla hüquqşünaslıq və tibb ixtisaslarında qeydə alınıb. Bir tələbə Prezident təqaüdünə layiq görülüb, 6 nəfər fənn olimpiadalarının qalibi kimi müsabiqədənkənar qəbul olunub. Tələbələrin 52 faizi qız, 48 faizi oğlandır. Qarabağ Universitetinin tələbə ailəsi ölkəmizin 66 rayon və şəhərini təmsil edən geniş coğrafiyanı əhatə edir. Hazırda burada əksəriyyəti nüfuzlu xarici universitetlərdə ali təhsil almış və müvafiq təcrübəyə sahib 288 əməkdaş çalışır: 137-si pedaqoji, 123-ü inzibati, 28-i texniki heyət üzvüdür. Qarabağ Universitetinin klinikasında isə 66 əməkdaş fəaliyyət göstərir. Tələbə və əməkdaşlarımız respublikamızda və xaricdə təşkil olunmuş müxtəlif çoxsaylı konfrans, forum, müsabiqə, yarışma, olimpiada, festival və sərgilərdə yüksək nəticələr göstərərək universitetimizi uğurla təmsil ediblər.

Təhsil ocağının tədris mühiti də modern yanaşmalar əsasında qurulmuşdur. Müasir pedaqoji yanaşmalar, qabaqcıl beynəlxalq kurikulumların tətbiqi, tələbə mərkəzli idarəetmə modeli, layihə əsaslı öyrənmə, laboratoriya yönümlü dərslər, rəqəmsal və yumşaq bacarıqların inkişafı, startap və innovasiya təşəbbüslərinin dəstəklənməsi Qarabağ Universitetini ölkənin ən dinamik akademik mühitlərindən birinə çevirir. Bu qısa müddətdə tələbələrin müxtəlif sosial və innovativ layihələrdə fəal iştirakı, Qarabağın sosial-iqtisadi inkişaf istiqamətləri üzrə yeni ideyalarla çıxış etmələri, həm də universitetdə tədris prosesinin praktiki yönümlülüyünə xüsusi önəm verilməsinin göstəricisidir.

Universitet fəaliyyətinin ilk ilindən etibarən dövlət və sənaye qurumları ilə işbirliyi, eləcə də beynəlxalq əməkdaşlıq sahəsində də fəal mövqe nümayiş etdirir. Sözügedən əməkdaşlıqlar çərçivəsində tələbə və əməkdaşların potensialının inkişafına, onların rifahının yüksəldilməsinə, bilik və bacarıqlarının artırılmasına hədəflənən bir sıra layihələr həyata keçirilmiş və müvafiq addımlar atılmaqdadır. Beynəlxalq fəaliyyətlə bağlı xüsusi olaraq vurğulamaq lazımdır ki, Qarabağ Universitetinin Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinə (TÜRKÜNİB) üzv qəbul edilməsi və Beynəlxalq Universitetlər Assosiasiyasında (IAU) təmsil olunması qlobal akademik məkanla inteqrasiyanın mühüm mərhələsini açdı. Nüfuzlu xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində ikili diplom proqramları, tələbə və müəllim mübadiləsi layihələri, tədris və tədqiqat laboratoriyalarının qurulması, birgə tədqiqatların və ortaq elmi tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Qarabağ Universiteti regional deyil, beynəlxalq elm və təhsil mərkəzinə çevrilmə hədəfi ilə fəaliyyət göstərir.

## Gələcək hədəflər

Qarabağ Universitetinin qarşıdakı illər üçün strateji hədəfləri daha geniş, sistemli və çoxşaxəlidir. Tədrisin keyfiyyətinin davamlı yüksəldilməsi, elmi potensialın gücləndirilməsi, gənclərin müasir bilik və bacarıqlara yiyələnməsi, maddi-texniki bazanın genişləndirilməsi və yenilənməsi, qarşılıqlı faydalı tərəfdaşlıqların inkişaf etdirilməsi, innovativ təşəbbüskarlığın, icmayönümlü layihələrdə fəallığın və beynəlxalq platformalarda iştirakın artırılması diqqət mərkəzində saxlanılır. Eləcə də, ortamüddətli perspektivdə tələbə sayının 10 minə çatdırılması, Şuşa, Xocalı və Xankəndini əhatə edən müasirtipli multikampus modelinin tətbiqinə nail olunması, proqramların beynəlxalq akkreditasiyalardan keçirilməsi, innovasiya ekosisteminin formalaşdırılması və inkişaf etdirilməsi qarşıda duran əsas hədəflərdəndir. Universitet dayanıqlı inkişaf yönümlü və tələbə mərkəzli idarəetmə, tədqiqat yönümlü tədris və innovasiya əsaslı bilik ekosistemi ilə ölkənin və regionun aparıcı ali təhsil mərkəzinə çevrilməkdə qərarlıdır.

Bu gün Qarabağ Universitetinin yaradılmasının ikiilliyi qeyd olunarkən böyük qürur hissi ilə vurğulanmalıdır ki, bu ali təhsil ocağı Azərbaycanın postmüharibə dövründə həyata keçirdiyi ən uğurlu layihələrdən biridir. Burada qurulan hər bir dəyər, açılan hər bir fakültə, qəbul olunan hər bir tələbə, keçirilən hər bir dərs Qarabağın dirçəlişinə atılmış daha bir addımdır. Universitet azad edilmiş torpaqlarda yalnız həyatın deyil, biliklərin və yaradıcılığın bərpası, vətənpərvərlik ruhunun, milli kimliyin və Zəfər irsinin qorunduğu mənəvi mərkəzdir. Qarabağ Universiteti qalib xalqın qalib gəncliyi üçün yaradılmış ali təhsil ocağıdır. Burada yetişən “Zəfər nəsli” bilikli, yaradıcı, milli kimliyinə sadiq və dünyaya açıq Azərbaycan gəncliyidir. Beləliklə, Qarabağ Universiteti Zəfərin elmi davamı, Qarabağın yenidən intellektual doğuluşunun rəmzidir. Qarabağ Universiteti ailəsinin üzvü olaraq bu şərəfli missiyaya xidmət etmək sonsuz fəxarətdir.

Sonda Qarabağ Universitetinin yaradılmasına və inkişafına davamlı olaraq göstərdiyi yüksək diqqət və dəstəyə görə Prezident İlham Əliyevə universitetin bütün əməkdaşları və tələbələri adından dərin təşəkkürümüzü bildiririk. Əminik ki, dövlət başçımızın universitetin gələcəyi ilə bağlı qarşıya qoyduğu strateji hədəflərə çatmaq, Qarabağın intellektual, elmi və təhsil potensialını yüksəltmək istiqamətində uğurla irəliləyəcəyik.

**Şahin BAYRAMOV,**
*Qarabağ Universitetinin rektoru*

# Çevik və inklüziv öyrənmə imkanları



## Məktəblilərin ingilis dilini öyrənməsini dəstəkləyən yeni rəqəmsal məzmunun təqdimatı olub

bp Azərbaycanda rəqəmsal təhsil imkanlarının artırılmasına yönəlmiş sosial investisiya layihəsinin ikinci mərhələsini tamamlayıb.

Noyabrın 24-də keçirilən təqdimat mərasimində elm və təhsil nazirinin müavini Kənan Kərimzadə iştirak edib.

Bildirilib ki, layihə "LANDAU Educational Technologies" MMC ilə əməkdaşlıqda həyata keçirilib. Layihədə əsas məqsəd 9 və 11-ci sinif ingilis dili buraxılış imtahanlarına hazırlaşan şagird və müəllimləri dəstəkləmək olsa da, təqdim olunan yüksək keyfiyyətli və əlçatan rəqəmsal məzmun 5—11-ci siniflərin bütün şagirdlərinin istifadəsi üçün uyğundur.

Layihənin yeni mərhələsi 60 saatlıq dərs müddətinə uyğun 350 tədris videosu, imtahana hazırlıq üçün 14000 sualdan ibarət sual bankı, imtahan şəraitini simulyasiya etmək üçün 70 test toplusu, tədris prosesində müəllimlərə kömək məqsədilə hazırlanmış təqdimatlar və iş vərəqləri, həmçinin müəllimlərin ev tapşırıqları verməsinə və şagirdlərin irəliləyişini izləməsinə imkan verən rəqəmsal platforma kimi geniş əhatəli materiallar təqdim edir. Ölkə üzrə 500 müəllimin və 10000 şagirdin layihədən bəhrələnəcəyi gözlənilir.

Təqdimat mərasimində çıxış edən bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bildirib ki, bu layihə təkcə şagirdləri ingilis dili imtahanlarında uğur qazanmaq üçün onlara lazım olan vasitələrlə təmin etmir, o həm də müəllimlərə müasir dərs resursları təqdim etməklə onların rolunu gücləndirir. Azərbaycan məktəbləri üçün məzmun hazırlanmasına sərmayə qoymaqla biz ölkənin təhsil potensialının artırılmasına və keyfiyyətli təhsilin hər bir şagird üçün əlçatan olmasına töhfə vermək istəyirik. Azərbaycanda təhsilin inkişafını innovativ rəqəmsal resurslar və həllər vasitəsilə dəstəkləməyə davam etməkdən çox məmnunuq.

Çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə bildirib ki, bir çox ölkələr kimi Azərbaycan da ingilis dilini əsas xarici dil kimi ümumi təhsil müəssisələrində tədris edir və təxminən 98—99% məktəbdə ingilis dili əsas xarici dil kimi tədris olunmaqdadır.

Nazir müavini qeyd edib ki, ingilis dili ilə bağlı keyfiyyət sahəsində irəliləyişlər var, lakin bu, hələ kifayət deyil. Qarşıdakı dövrdə əsas diqqət keyfiyyətin artırılmasına yönəlməlidir. Keyfiyyətdən danışanda bir neçə əsas istiqamət var. Birinci istiqamət, şübhəsiz ki, müəllim hazırlığıdır. İkinci istiqamət təhsilin məzmunu və tədris materiallarıdır. Bu baxımdan bu gün burada təqdim olunan rəqəmsal, yeni standartlı platformalar böyük əhəmiyyət kəsb edir. Üçüncü istiqamət isə ölkələrarası mübadilələr, ali təhsildə ingilisdilli proqramların və ingilis dilində tədris olunan ixtisasların genişləndirilməsidir.

Kənan Kərimzadə vurğulayıb ki, son illərdə Elm və Təhsil Nazirliyi tərəfindən elektron dərsliklər, videoresurslar, indi "Rəqəmsal məktəb" platforması hazırlanıb. Bu platformalarda ümumilikdə on minlərlə ingilis dilində məzmun yaradılıb. Vacib elementlərdən biri də dərsliklərin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasıdır.

Nazir müavini əlavə edib ki, başqa bir vacib nüans müəllim hazırlığının keyfiyyətinin artırılmasıdır. Son iki ildə Elm və Təhsil Nazirliyi tərəfindən təxminən 10 400 xarici dil müəllimi sertifikatlaşdırmadan keçirilib və sevindirici haldır ki, bu müəllimlərin 86%-i imtahanlardan yüksək nəticə əldə edib.

Qeyd edək ki, sözügedən layihənin nəticəsi olaraq hazırlanmış bütün materiallar ümumi istifadəyə açıqdır və ənənəvi tədris kontentini tamamlamaq məqsədi daşıyır. Bu materiallar yerindən və şəraitindən asılı olmayaraq bütün şagirdlərə çevik və inklüziv öyrənmə imkanları yaradır. Yeni məzmun bütövlükdə *www.aspirelearning.app.* veb-saytında yerləşdirilib.

# "Kimya, texnologiya, ekologiya"

## Akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş respublika elmi konfransı



Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş "Kimya, texnologiya, ekologiya" respublika elmi konfransının açılış mərasimi keçirilib.

Konfrans ADPU, Elm və Təhsil Nazirliyinin akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu və Naxçıvan Dövlət Universitetinin (NDU) birgə təşkilatçılığı ilə baş tutub.

ADPU-nun rektoru professor Cəfər Cəfərov akademik Yusif Məmmədəliyevin elmi irsinin Azərbaycan kimya elminin inkişafındakı rolundan danışıb. Rektor bildirib ki, akademik Yusif Məmmədəliyevin yalnız Azərbaycan elminin deyil, həmçinin dünya kimya elminin inkişafında müstəsna xidmətləri olub. Onun elmi fəaliyyəti neft-kimya sahəsində fundamental tədqiqatların əsasını qoyub, respublikamızda bu istiqamətdə elmi məktəbin formalaşmasına və beynəlxalq elmi nüfuzun artmasına ciddi töhfə verib. Qeyd edilib ki, Ali Pedaqoji İnstitutun (indiki ADPU) məzunu olan Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının prezidenti kimi ölkəmizdə elmin idarə olunması, elmi-tədqiqat institutlarının təşkili və kadr potensialının formalaşdırılması sahəsində əvəzsiz xidmətlər göstərib, alimin təşəbbüsü ilə yaradılmış elmi müəssisələr bu gün də ölkəmizin elmi və sənaye potensialının inkişafında mühüm rol oynamaqdadır. ADPU-da akademikin xatirəsinin əbədiləşdirilməsi və onun elmi irsinin təbliği barədə söz açan rektor qeyd edib ki, universitetdə alimin adını daşıyan auditoriya fəaliyyət göstərir, eyni zamanda, Kimya və biologiya fakültəsinin yüksək akademik göstəricilərə sahib tələbələri üçün akademik Yusif Məmmədəliyevin adını daşıyan təqaüd təsis olunub. Konfransın əhəmiyyəti barədə danışan Cəfər Cəfərov yubiley tədbirinin akademik Yusif Məmmədəliyevin çoxşaxəli fəaliyyətinin daha dərindən öyrənilməsinə, onun ideyalarının elmi və mənəvi baxımdan gələcək nəsillər üçün nümunə kimi təqdim olunmasına xidmət edəcəyinə və yeni elmi nailiyyətlərin qazanılmasına töhfə verəcəyinə əminlik ifadə edib.

Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru akademik Vaqif Abbasov akademik Yusif Məmmədəliyevin elmi irsi barədə geniş məruzə ilə çıxış edib. O, görkəmli alimin XX əsr kimyasına verdiyi töhfələri, xüsusilə də neft-kimya proseslərinin elmi əsaslarının yaradılması, kataliz və üzvi sintez sahəsində apardığı fundamental tədqiqatların müasir elmin inkişafına açdığı yol haqqında danışıb.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov bildirib ki, konfransda ölkənin əsas ali təhsil və elmi-tədqiqat müəssisələrindən olan alim və tədqiqatçılar iştirak edirlər. İki gün müddətində keçiriləcək konfrans 3 istiqamət üzrə 5 bölmə iclası ilə davam edəcək. Konfransda 240-dək məruzənin təqdim edilməsi nəzərdə tutulur. Prorektor "Görkəmli təşkilatçı lider alim və ictimai xadim" adlı geniş məruzəsində akademik Yusif Məmmədəliyevin təkcə elm adamı kimi deyil, eyni zamanda, təşkilatçı rəhbər və ictimai xadim kimi çoxşaxəli fəaliyyətini iştirakçıların diqqətinə çatdırıb.

Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru AMEA-nın müxbir üzvü, professor Əlövsət Quliyev, NDU-nun elm və innovasiya məsələləri üzrə prorektoru dosent Elsevər Əsədov və digər çıxışçılar alimin Azərbaycan elminə verdiyi töhfələrdən söz açıblar. Konfrans "Kimyanın aktual problemləri", "Yaşıl enerji və ekoloji problemlər" və "Kimyanın tədrisinin müasir üsulları" mövzularında bölmə iclasları ilə davam edib. Konfransın sessiyalarında neft-kimya prosesləri, yaşıl texnologiyalar, ekoloji dayanıqlıq, yeni katalizatorların hazırlanması və kimyanın tədrisində innovativ yanaşmalar kimi mövzular üzrə elmi məruzələr təqdim olunub.

# ADPU-da ali təhsil və müəllim hazırlığına həsr edilmiş konfranslar keçirilib

Noyabrın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Türkiyənin Ali Təhsilin Keyfiyyəti Şurası (YÖKAK), Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA), ADPU, həmçinin Türkiyənin Sakarya və Çankaya universitetlərinin birgə təşkilatçılığı ilə "Ali təhsildə keyfiyyət üzrə beynəlxalq konfrans (ICQH)" və "Beynəlxalq müəllim hazırlığı konfransı (ITEC)"nın açılış mərasimi keçirilib.

Tədbirdə elm və təhsil ictimaiyyətinin nümayəndələri, ali təhsil və elmi-tədqiqat müəssisələrinin rəhbərləri, millət vəkilləri, diplomatik korpusların nümayəndələri, Azərbaycan və digər ölkələrdən olan alim və tədqiqatçılar iştirak ediblər.

Tədbirin Türkiyə tərəfdən koordinatoru, Sakarya Universitetinin professoru Aytekin İşman və Azərbaycan tərəfdən koordinatoru, ADPU-nun tədris işləri üzrə prorektoru dosent Eldar Aslanov çıxış edərək hazırlıq prosesi barədə məlumat veriblər. Bildirilib ki, iki gün davam edəcək "Ali təhsildə keyfiyyət üzrə beynəlxalq konfrans"a 210-dan çox, "Beynəlxalq müəllim hazırlığı konfransı"na isə 150-dən çox elmi məqalə və tezis təqdim edilib.

Açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov ali təhsildə keyfiyyətin yüksəldilməsinin bu gün qlobal müzakirələrin əsas mövzularından biri olduğunu diqqətə çatdırıb. O bildirib ki, cəmiyyətin dinamik inkişafı, əmək bazarının yeni tələbləri və sürətli texnoloji dəyişikliklər ali təhsil müəssisələrindən daha çevik və innovativ yanaşmalar tələb edir. Konfransların qlobal təcrübə mübadiləsi və islahatların müzakirəsi baxımından mühüm platforma olduğunu vurğulayan rektor ölkəmizdə son illər ali təhsildə keyfiyyət təminatı sahəsində həyata keçirilən islahatlardan söz açıb.

C.Cəfərov müəllim hazırlığı sisteminin müasir tələblərə uyğunlaşdırılmasının vacibliyini qeyd edərək "Beynəlxalq müəllim hazırlığı konfransı"nın pedaqoji təhsildə yeni istiqamətlərin formalaşmasına mühüm töhfə verəcəyini bildirib.

Türkiyənin Çankaya Universitetinin rektoru professor Hadi Hakan Maraş, Sakarya Universitetinin rektoru professor Hamza Al, YÖKAK sədri professor Ümit Kocabıçak və TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov çıxışlarında konfransın iki ölkə arasında bilik və təcrübə mübadiləsi baxımından strateji əhəmiyyət daşıdığını qeyd ediblər.

Daha sonra plenar iclasın açılış məruzələri dinlənilib. ADPU-nun rektoru Cəfər Cəfərov "Müasir müəllim hazırlığının keyfiyyət göstəriciləri", YÖKAK sədri professor Ümit Kocabıçak "Ali təhsildə akkreditasiyaların önəmi və süni intellektin təsiri", TKTA sədri Tural Əhmədov isə "Ali təhsil müəssisələrinin institusional və proqram akkreditasiyası üzrə çağırışlar və gözləntilər" mövzularında məruzələrlə çıxış ediblər.

Plenar iclas başa çatdıqdan sonra hər iki konfrans öz işini 18 bölmədə müzakirələrlə davam etdirib.

**Yetər KƏRİMLİ**

# "Süni intellektdən istifadə edərək biotibb sahəsində daha çox işləməliyik"



Selçuk BAYRAKTAR:

## "Elm adamlarının və səhiyyə işçilərinin birlikdə çalışacağı bir məkan yaratmalıyıq"

"Müdafiə sənayesindəki uğurların sirri mühəndislərin cəbhədə əsgərlərlə çiyin-çiyinə işləməsidir. Eyni model səhiyyə sahəsinə də köçürülməlidir. Texnologiyanı inkişaf etdirənlər əməliyyat otağında, klinikalarda birbaşa həkimlər, səhiyyə işçiləri ilə yaşamalıdırlar. Yalnız bundan sonra tibbin mühəndisliklə birləşməsi mümkün olacaqdır". Bu barədə Türkiyənin "Baykar" şirkətinin texniki direktoru və "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının İdarə Heyətinin sədri Selçuk Bayraktar Ankarada keçirilən XI Türk Tibb Dünyasının Qurultayı çərçivəsində süni intellektin tibb sahəsində tətbiqi imkanlarına həsr olunmuş çıxışında bildirib. "Səhiyyə sahəsində tam müstəqillik: milli texnologiya hərəkatının yeni kursu" adlı panel müzakirəsində çıxış edən S.Bayraktar pandemiya dövründə yerli respiratorların səfərbər edilməsinə toxunaraq, süni intellekt dövründə Türkiyənin səhiyyə sahəsində izləməli olduğu yol xəritəsindən danışıb.

**"İnsanı yaşat ki, dövlət yaşasın"**

Pandemiya prosesinin qlobal tədarük zəncirlərinin kövrəkliyini və hətta inkişaf etmiş ölkələrin sadə respirator istehsal edə bilməməsini nümayiş etdirdiyini ifadə edən S.Bayraktar sivilizasiyanın "insanı yaşat ki, dövlət yaşasın" şüarına uyğun hərəkət etdiklərini vurğulayıb. Bu prosesdə yerli şirkətlərlə qısa müddət ərzində respirator cihazının kütləvi istehsalına başladıqlarını deyən S.Bayraktar qeyd edib ki, bu məhsul Türkiyədən başqa 30-dan çox ölkəyə ixrac edilib.

S.Bayraktar əlavə edib: "Bu proses düzgün qarşılıqlı əlaqə və motivasiya olduqda mühəndislərimiz və həkimlərimiz bir araya gəldiyində nələrə nail ola biləcəyimizin ən konkret sübutu oldu".

**"E-impuls məlumatları böyük bir xəzinədir"**

Süni intellekt dövründə Türkiyənin ən böyük gücünün sağlamlıq məlumatları olduğunu söyləyən S.Bayraktar aşağıdakıları qeyd edib: "Türkiyə olaraq, işlənməmiş, bizi gözləyən böyük bir xəzinəmiz var, elektron impuls məlumatları. Bu illər ərzində toplanan milyonlarla insanın tibbi məlumatları var. Bu, dünyada analoqu olmayan bir məlumat toplusudur. Ancaq bu məlumatlar xam şəklində kifayət qədər fayda vermir".

S.Bayraktarın sözlərinə görə, bu məlumatlar elə işlənməlidir ki, onlar şəxsi məlumatların məxfiliyinə və qanunvericiliyə tam uyğun olsun, anonimləşdirilsin və tədqiqatçılar və tərtibatçılar üçün əlçatan olsun. Selçuk Bayraktar, bunun universitetlərdə və xəstəxanalarda qurulacaq "Sağlamlıq texnoparkları" vasitəsilə əldə edilə biləcəyini söyləyib.

Əhalinin yaşlanması ilə səhiyyə sistemindəki yükün artdığını və hər il 1,5 milyard həkim ziyarətinin edildiyini söyləyən S.Bayraktar, həkimlərin xəstələrinə kifayət qədər vaxt ayırması üçün problemin həllinin süni intellekt olduğunu söylədi. Xidmətlərin keyfiyyətinin pisləşməməsi üçün süni intellekt dəstəkli köməkçilərə və qərarverici dəstək sistemlərinin lazım olduğunu izah edən S.Bayraktar gənclərə müraciət edərək sözlərini davam etdirib:

"Süni intellekt sayəsində fərdiləşdirilmiş tibbdən tutmuş süni intellekt köməkçilərinə qədər sağlamlıq imkanları var. Həkimlərin yanında qeydlər aparan bir köməkçi olsaydı çox faydalı olardı. Bununla birlikdə qərar dəstək sistemləri, genetik tədqiqatlar, hədəf dərmanların inkişafı, molekulların sintezi... Kompüter belə məsələlərdə çox güclüdür. Şahmat oyununda olduğu kimi, qaydaları kommunikasiya edilmiş, alqoritmə endirilə bilən və təkrar-təkrar sınanması lazım olan hallarda, xüsusən də süni intellekt alqoritmləri nümunə axtarış alqoritmi kimi qəbul edildikdə çox güclüdür".

**"Biotibb sahəsində süni intellektdən istifadə edərək daha çox işləməliyik"**

Selçuk Bayraktar Türkiyədə yaxşı həkimlərin olduğunu söyləyib: "E-impuls sistemi çox inkişaf etmiş bir sistemdir. İllər əvvəl ABŞ bu sahədə əhəmiyyətli dərəcədə geridə qaldı. Mərkəzləşdirilmiş məlumatların saxlanması imkanı yoxdur və bu mümkün deyil və vətəndaş da etibar etmir. Bu məlumatlara sahibik və qiymətləndirməmiz gərəkdir. Süni intellektlə biz bunu böyük sərmayə olmadan edə bilərik. Əla infrastruktur, yetişmiş insanlar da var. Etməli olduğumuz onları bir araya gətirməkdir. Elm adamlarının və səhiyyə işçilərinin birlikdə çalışacağı bir məkan yaratmalıyıq. Süni intellekt və kompüterlərdən istifadə edərək biotibb sahəsində daha çox işləməliyik".

Sağlamlıq məlumatlarının təhlükəsizliyini təmin edərək, dünyanın ən qabaqcıl tədqiqat institutları və universitetləri ilə işləyə biləcəklərini vurğulayan S.Bayraktar süni intellekt texnologiyalarından istifadə edərək ağciyər xərçənginin ilkin aşkarlanması üçün proqram hazırlamaq üçün Massaçusets Texnologiya İnstitutundan bir qrup tədqiqatçı ilə əməkdaşlıq etdiklərini söylədi. Görülən işlərin həmişə ticari bir şeyə çevrilməməsi gərəkliyini bildirən S.Bayraktar, "bəzən prestij də kifayətdir. Bənzər bir şeyə uyğun və ilk dəfə kəşf edilən araşdırmalar da edilə bilər. Məsələn, bunlar DNT quruluşundakı gen təsvirləri və ya tibb sahəsindəki araşdırmalar ola bilər".

**Oruc MUSTAFAYEV**

# “Müəllimlikdən ilhamlandım və yaxşı müəllim oldum”

## Müəlliminin sevdirdiyi riyaziyyat onun ömür yolunda əhəmiyyətli istiqamət olub

Fasiləsiz 24 il müəllim işləyib. Bu günlərdə əmək fəaliyyətini dayandırmağa qərar verib. Yorulduğu üçün yox, əmək fəaliyyəti ilə məşğul olmaq üçün müəyyən olunmuş yaş həddinə çatdığına görə bu addımı atıb. 43 illik əmək fəaliyyəti dövründə 3 il kənd məktəbində müəllim, 8 il Təhsil İnstitutunda elmi işçi, 3 il təhsil şöbəsində müdir müavini, 11 il məktəb direktoru, 19 il Elm və Təhsil Nazirliyində müxtəlif vəzifələrdə çalışan Zöhrab Kəlbəliyevin keçdiyi yola birlikdə nəzər salaq. Karyerasına müəllimlikdən başlayıb, həyatı boyu cəmi 5 iş yeri dəyişib və bir çox yerdə sıfırdan başlamalı olub, sistem qurub, təlimat hazırlayıb, qaydalar tərtib edib. Bu, onun 65-ci ilini yaşadığı ömrünün xülasəsidir.





### Uşaqlıqda qalanlar: tar çalıb, qurşaq tutub, yumruq oynadıb...

Zöhrab Kəlbəliyev Cəbrayılın Horovlu kəndindəndir. Uzun illər məcburi köçkünlük yaşayan kəndin taleyini bölüşməyib. Kənd müəllimi olan atasının elmə marağı sayəsində kənd köçmədən o kənddən köçüb. Hazırlıqsız, birdən-birə verilən qərarla 1969-cu ildən Bakıda yaşamağa başlayıblar: “19 nömrəli tam orta məktəbdə təhsilimə III sinifdən davam etdim. Öyrətməyi, şagirdləri sevən müəllimlərdən dərs aldım. Müəllimlərim elə dərs prosesindəcə öyrədirdilər. Əslində evdə öyrənmək üçün şərait də yox idi. 2 otaqlı mənzildə 6 nəfər uşaq və valideynlərimlə birlikdə yaşayırdıq. Bunu nəzərə alıb ev tapşırıqlarımı da elə məktəbdə yerinə yetirirdim”.

Müsahibim istedadlı uşaq olub. Rəsm çəkib, tarda ifa edib, hətta heykəl düzəltməyə maraq göstərib, güləş və boksla məşğul olub, üstəlik yaxşı oxuyub. Heykəltaraşlıq və rəsm bacarığını uşaqlıqda, tar ifaçılığını yeniyetməlikdə qoyub, riyaziyyat sevgisinin arxasınca düşüb. Müəlliminin sevdirdiyi riyaziyyat onun ömür yolunda əhəmiyyətli istiqamət olub. Karyerasına genlə gəldiyini söylədiyi bacarıqlarla yox, müəllimlərindən öyrəndikləri ilə davam edib.

### Amma böyüyəndə müəllim olub

Onun həyatında müəllimləri çox böyük dəyişiklik edib. O illəri indi anbaan xatırlayır: “Musiqi məktəbini də orta məktəblə eyni vaxtda bitirdim. Tardan dövlət imtahanı verəndə orada iştirak edən indiki Bakı Musiqi Akademiyasının prorektoru ifamı bəyəndi və imtahansız qəbul edilə biləcəyimi dedi. Amma mən dərhal cavab verdim ki, Bakı Dövlət Universitetinə qəbul olunmağı planlaşdırmışam”.

Planlaşdırdığı heç müəllimlik də deyildi: “Riyaziyyatçı olmaq üçün Mexanika-riyaziyyat fakültəsini seçmişdim. Özümdən çox razı idim, elə düşünürdüm ki, çox yaxşı riyaziyyatçı olaram, amma elə olmadı. Ona görə də həyat yolum başqa xəttə - müəllimliyə yönəldi. Müəllimlikdən ilhamlandım və yaxşı müəllim oldum”.

Riyaziyyat sevgisi IX sinifdən başlayıb. Müəllimi Məmməd Qəmbərov bu fənni şagirdinə sevdirə bilib. “Nəslimizdə də riyaziyyatçılar çox olub. Dayım da riyaziyyat müəllimi idi, odur ki, genetik faktorlar da müəyyən rol oynayırdı”- deyib ailədən gələn bacarıqlarının önəminə diqqət çəkmək istəsə də, müəlliminin həyatındakı əhəmiyyətli yerini də danmır: “Birmənalı deyirəm ki, müəllimlərimizin hətta heç bir şey demədən, ancaq hansısa formada - hərəkətləri, davranışları ilə ötürdüyü müəyyən ismarıclar həyatımızda böyük dəyişikliklərə səbəb olur”.

“Həyatının hər mərhələsi maraqlı olub”, - deyən Zöhrab müəllim bir də baxıb ki, bir kənd məktəbində müəllimdir. Çünki o, universiteti bitirən il məzun olan 200 riyaziyyatçıdan cəmi 14 nəfərə Bakıdakı institutlarda işləmək imkanı verilmişdi: “Həmin 14 nəfərdən biri ola bilmədim. Çünki onların əksəriyyəti Fizika-riyaziyyat təmayüllü liseyi bitirən, bünövrəsi daha güclü, olimpiada qalibi olanlar idi və onların üstünlüyünü ədalətli şəkildə qəbul edirdim. Qalanımız rayon və kəndlərə müəllim göndərildik”.

O da təyinatla Sabirabad rayonunun Talış kəndində (hazırda Hacıqabul rayonunun kəndidir) müəllimlik fəaliyyətinə başlayıb: “Baxmayaraq ki, çox təcrübəli müəllimlər, peşəmi öyrənə biləcəyim pedaqoqlar çalışırdı, məktəbdə çətin sinifləri mənə həvalə edir, olimpiadalara hazırlığı mənə tapşırırdılar. Bu, həm də universitetin nüfuzu ilə bağlı idi. Bakı Dövlət Universitetinin kadrları üstün biliyə malik hesab olunurdular. Hətta həmin illərdə rus bölməsində oxuyan IX-XI siniflərdə fizika dərsləri belə mənə verildi, rus bölməsində təhsil alan fənn müəllimi gələnə qədər onu mən əvəz etdim”.

### Müəllimlikdən elmi tədqiqata yönəlib

Elmlə məşğul olmaq üçün yox, Bakıya qayıtmaq üçün aspiranturaya qəbul olunub: “Bakıya qayıtmaq yollarından biri də bu idi. İndiki Təhsil İnstitutunun Fizika-riyaziyyatın tədrisi metodikası şöbəsində boş yer vardı və mən imtahan verib aspiranturaya qəbul oldum. “Cəbri anlayışların formalaşdırılması üzrə çalışmalar sistemi”mövzusu üzərində 3 il işlədim. Azərbaycanda Riyaziyyatın tədrisi metodikası üzrə müdafiə şurası olmadığından müdafiə edə bilmədim. Sonralar birdəfəlik müdafiə şuraları yaradılırdı, ancaq artıq mövzudan da, elmi işdən də uzaqlaşmışdım”.

### Peşmançılığı da var, təsəllisi də

Yarımçıq qalan elm yolunda davam etmədiyinə görə peşmandırmı? Peşmanlığı da var, təsəllisi də: “Dissertasiya işimə çox böyük əziyyət çəkmişdim. Səbirli olsaydım, onu başa çatdıra bilərdim. Düzdür, dövlətin bu istiqamətdə mənim təhsilimə xərclədiyi vəsaitin müqabilində qazandığım bilik və bacarıqları başqa sahələrdə tətbiq etdim. Məqalələr yazdım, metodiki prosesdə fəal iştirak etdim. Hətta direktor işlədiyim dövrdə Təhsil Nazirliyinin (hazırda Elm və Təhsil Nazirliyi - red.) təşkil etdiyi pedaqoji mühazirələrə belə qoşularaq “Ümumi təhsilin səmərəli idarə olunması” mövzusunda mühazirəm münsiflərin qiyməti ilə birinci dərəcəli diploma layiq görüldü. Bunlar elmi-tədqiqatçı kimi yetişməyimə çəkilən əməyin hesabına olmuşdu. Amma hesab etmirəm ki, bütün müdafiə mövzuları ömrü boyu insan üçün yararlı olur. Dissertasiya işləyərkən insan, sadəcə tədqiqatçılıq bacarığına yiyələnir. Sonra gərək tədqiqatçılıq istiqamətində yeni xətlər, yeni cığırlar açasan. Səbirsizliyimin ucbatından bu istiqamətə düşə bilmədim”.

### Təhsildən uzaqlaşmayan yeni karyera xətti açıldı

3 illik zəhmətinin üstündən bir xətt çəkməyi bu gün onun həyatında səbirsizliyinin nəticəsi saydığı yeganə peşmanlığıdır. Ancaq indi peşman olacağını o vaxt bilmirdi. Məqsədinə - Bakıya gəlməyə nail olmuşdu və onun karyerada növbəti dayanacağı təhsil şöbəsi oldu: “1993-cü ildə Nəsimi rayonunda təhsil şöbəsinin müdir müavini təyin olundum. 28 ümumtəhsil məktəbi, 44 məktəbəqədər müəssisə, 1 axşam məktəbi, 5-6 məktəbdənkənar müssisənin idarə olunması müdir müavini kimi mənim üzərimə düşürdü. Məndən əvvəl müdir müavini milliyətcə rus olduğundan bütün sənədlər rus dilində tərtib edilmişdi. Sanki 0-dan başlayırammış kimi, protokollar, məktəb sənədləşmələri, Azərbaycan dilində təlimatların hazırlaması mənim əlavə vaxtımı apardı, ancaq bu sayədə bu sahəni daha dərindən öyrəndim, 3 il ağır əziyyətlə sistem qurdum”.

Karyera pilləkəni Nəsimi rayonu 9 nömrəli məktəbin direktoru vəzifəsi ilə davam edib: “1996-2007-ci illərdə məktəb direktoru oldum. Gənc olsam da, idarəetməyə maraqlı idim. İdarəetmə təcrübəm müəyyən qədər formalaşmışdı, nəzəri biliklərim də vardı deyə, rəhbərlik etdiyim müəssisə nümunəvi məktəblərdən biri oldu”.

Amma direktorluqda da uzun müddət bənd almayıb: “Direktor olduğum dövrdə nazirliyin bir sıra islahat proseslərinə cəlb olunurdum. Riyaziyyatdan kurikulumların hazırlanması, riyaziyyatın tədrisi metodikası ilə bağlı məsələlərin müzakirəsində, eləcə də riyaziyyatdan buraxılış imtahanları üçün testlərin tərtib olunması mənə tapşırılırdı. Bu proseslərdə fəallığım mənə cəsarət verdi ki, islahatların əsas icraçılarından olmaq haqqını özümdə görüm”.

Odur ki, nazirlikdə işə başlamaq üçün müraciət edərək müsbət cavab alıb. O vaxtdan da müxtəlif vəzifələrdə çalışaraq üzərinə düşən hər vəzifənin öhdəsindən uğurla gəlib.

### Yolunu yolu bilənlər də var

“Həyatımın elə mərhələsindəyəm ki, əmək fəaliyyətimi yekunlaşdırıram . Bu gün yenidən qayıdacaq olsam, yenə bu yolu seçərəm”, - deyən Zöhrab Kəlbəliyev yolunu başqalarına da tövsiyə edir. Ailəsində isə onun yolu ilə gedən olmayıb: “Sabirabadda müəllim işlədiyim vaxtlar idi. Orta məktəbdə qardaşımı qiyabi riyaziyyat məktəbinə yazdırmışdım. Oradan tapşırıqlar gəlirdi, həmin tapşırıqları necə yerinə yetirməyinə mən nəzarət edir, ona istiqamət verirdim, mənim kimi riyaziyyatçı olmağını istəyirdim. Düzdür o, iqtisadiyyata yönəldi, amma arzuladığı sahədə uğur qazanmağında riyaziyyatın, dolayısı ilə mənim rolum çox oldu. Riyaziyyat sevgimi kiçik oğluma da ötürə bildim. O da İKT üzrə mütəxəssisdir”.

### Ömür davam edir

Zöhrab Kəlbəliyevin 65 yaşı Elm və Təhsil Nazirliyində qeyd edilib. Nazirliyin Aparat rəhbəri Mətin Kərimli kollektiv qarşısında onu təbrik edib, xoş sözlər söyləyib, təhsilə verdiyi töhfəni qiymətləndirib.

“Azərbaycan müəllimi” olaraq qocaman müəllimimizi təbrik edirik. Əmək fəaliyyətini karyerasının zirvəsində başa vuran təhsil mütəxəssisinə uzun ömür diləyirik.

**Ruhiyyə DAŞSALAHLI**

*Bəxtiyar VAHABZADƏ -100*

Xalqımızın tarixi keçmişində elə şəxsiyyətlər var ki, onların həyatı birbaşa xalqın həyatı ilə bağlı olmuş, məqsəd, amal olaraq sadəcə xalqın inkişafına köklənmişlər. Belə şəxsiyyətlərdən biri də Azərbaycan xalqının mütərəqqi ziyalılarından olan Bəxtiyar Vahabzadədir. O, Xalq şairi, müəllim - pedaqoq, dramaturq, ədəbiyyatşünas, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü kimi tanınıb.



# Vətənin, sözün, dilin şairi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 21 fevral 2025-ci il tarixində “Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncamda qeyd olunub: “Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii, ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır”.

Bəxtiyar Vahabzadə yaradıcılığına nəzər yetirsək, onun fəaliyyətinin böyük bir hissəsinin ana dilinin saflığı uğrunda mübarizəyə həsr olunduğunu aydın görə bilərik. Onun Azərbaycan dili mövzusuna yanaşması yalnız bədii deyil, həm də maarifçilik və vətənpərvərlik baxımından son dərəcə əhəmiyyətlidir. Xalq şairi yaradıcılığının bütün dövrlərində doğma dilimizi yad təsirlərdən qorumağın vacibliyini önə çəkib, bu istiqamətdə maarifçi ideyaları ilə ön sıralarda olub. Onun “Ana dili”, “Millət və dil”, “Latın dili” kimi şeirlərində ana dilinə qarşı biganəliyin, unutqanlığın cəmiyyətin inkişafı üçün hansı mənfi nəticələri doğura biləcəyindən bəhs olunur. Bu mövzuya bu dərəcədə həssas yanaşması da əbəs yerə deyildi. Tarixi keçmişimizi vərəqlədikdə dilimizin uzun illər sıxışdırıldığını, yad təsirlərə məruz qaldığını və milli kimliyimizdən uzaqlaşdırılmaq üçün müxtəlif yollara əl atıldığını aydın görə bilərik. Məhz bu səbəblər idi ki, Bəxtiyar Vahabzadə və onun kimi neçə-neçə ziyalı xadimlərimiz dilimizin qorunması uğrunda mübarizə aparmış və bu mövzuya əsərlərində geniş yer vermişlər. Şairin “Ana dili” şeiri dilimizin gözəlliyinin, qrammatik və poetik imkanlarının genişliyinin diqqətə çatdırılması, dil ənənələrinin qorunub saxlanılması baxımından şah əsərlərindən biridir:

*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,*
*Bu dil əcdadımızın bizə miras verdiyi.*
*Qiymətli xəzinədir... onu gözlərimiz tək,*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək.*

Bu sətirlərdə şair ana dilini təkcə ünsiyyət vasitəsi kimi yox, həm də milli kimliyin simvolu kimi təqdim edir. “Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır” deməklə dilin insan varlığı ilə vəhdətini göstərir, dilə yüksək emosional dəyəri ifadə edir.

Bəxtiyar Vahabzadənin doğma dilini sevməyənlərə, bu dilə hörmət etməyənlərə qarşı kəskin mövqeyi onun həm şeirlərində, həm də publisistik yazılarında öz əksini tapıb. Xalq şairi mütəmadi olaraq mətbuatda da “Ana dilim-ana köküm!”, “Tarix, dil, ənənə”, “Ana dili”, “Dil haqqında sorğu”, “Bir daha ana dili haqqında”, “Dil və əlifba”, “Dilimiz-ədəbiyyatımız”, “Dildə təbiilik və gözəllik”, “Ana dili - dövlət dili” kimi məqalələrlə çıxış edib, yüksək tribunalardan dilimizin inkişafı barədə düşüncələrini bölüşüb. O, məqalələrinin birində ana dilinin təbliğatının aparılmasının önəmini qeyd edərək yazır: “...Dil yalnız ondan istifadə edəndə, həmin dildə danışanda yaşayır və inkişaf edir. Ziyalısı ana dilində danışmayan xalqın nəinki dili, özü də ölümə məhkumdur”.

Bəxtiyar Vahabzadə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edib. Onun yaradıcılığının əsas hissəsi ana dili ilə yanaşı, həm də Vətən, milli birlik, müstəqilliklə bağlı olub. Yaradıcılığının böyük bir hissəsi sovet ideologiyası zamanına düşsə də, bir vətən oğlu kimi milli kimliyindən ayrı düşməmiş, soydaşlarını da bu yola səsləmiş və köksü Vətən və azadlıq sevdası ilə alovlanan şairə dövr, zaman hökm edə bilməyib.

Sənətkarın bədii təsvir obyektlərindən biri də Cənubi Azərbaycan, bütöv Vətən ideyası, idealı olub. Şair bu mövzunu 1950-ci illərdən başlayıb və yaradıcılığının bütün mərhələlərində davam etdirib. Bəxtiyar Vahabzadə Azərbaycan və azərbaycançılıq mövzusunu yaradıcılığının əsas qayəsinə çevirmiş, bu mövzunu tam mənası ilə geniş çərçivədə təqdim etmişdir. Şairin “Azərbaycan” şeirində deyilir:

*Azərbaycan, adın oddur, özün - işıq, sözün- işıq,*
*Biz də sənin bu müqəddəs torpağından boy atmışıq.*
*Sənsən bizim bu dünyada məsləkimiz, amalımız,*
*Yolumuza işıq saçsın ulduzumuz, hilalımız.*

Bəxtiyar Vahabzadə Azərbaycanın dövlət müstəqilliyi, istiqlalı yolunda çox çalışıb. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyev ilk “İstiqlal” ordenini ona və Xəlil Rza ilə Məmməd Araza verib. Əllinci illərin sonları - Sovet imperiyasının hələ heç sarsılmadığı, daha da güc topladığı o illərdə Bəxtiyar Vahabzadə “Gülüstan” poemasını yazdı. Bizə elə bu fakt kifayətdir deyək ki, o taylı-bu taylı yatmış millətin içində ayıq insanlar da vardı, biri də Bəxtiyar Vahabzadə idi. Bəxtiyar Vahabzadə poeziyamızda milli birliyin, vahid azərbaycançılığın əsas təbliğçisi və tərənnümçüsü idi.

Müstəqilliyin əsas rəmzlərindən biri də bayraqdır. Milli ideyalardan heç vaxt uzaqlaşmayan şair, təbii ki, bu mövzudan da yan keçməmişdir.

*Daim ucalasan! Savaş günündə*
*Əsgər silahıyla səni tən görüm.*
*Yalnız zəfər çalmış şəhid önündə*
*Səni alqış üçün əyilən görüm.*

Bu misralarla bayrağa müraciət edərək həm onun daim ucalmasını, dalğalanmasını arzulamış, həm də bu bayraq, bu torpaq uğrunda canından keçmiş qəhrəmanlarımızı - şəhidləri xatırlayıb. Xalq şairi Bəxtiyar Vahabzadənin 1990-cı ilin qanlı yanvar hadisələrinə həsr etdiyi “Şəhidlər” poeması Azərbaycan milli azadlıq ədəbiyyatının kamil nümunəsidir. Poemada 20 Yanvar şəhidlərinin azadlıq mücadiləsi günlərində göstərdiyi misilsiz qəhrəmanlıq tərənnüm edilmiş, qatillərə ümumxalq nifrəti öz əksini tapmışdır:

*Üçrəngli bayrağı öz qanlarıyla*
*Vətən torpağına çəkdi şəhidlər.*

Misralarda şair şəhidlərin vətən, bayraq uğrunda canından keçməsini bədii məharətlə əks etdirib.

B.Vahabzadənin zəngin yaradıcılığı təkcə poeziyada özünü göstərməmiş, eləcə də dramaturgiya sahəsində də təzahür etmişdir. Onun tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olub. Müasir həyatdakı ziddiyyətlərin, qarşıdurmaların və mənəvi sarsıntıların təsviri ilə yanaşı, yüksək, pak və ülvi hisslərin tərənnümü Vahabzadə dramaturgiyasında böyük təcəssümünü tapıb. Onun pyesləri Azərbaycan və eləcə də xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulub, müəllifinə geniş şöhrət gətirib. B.Vahabzadə həm də alim kimi Azərbaycan elmi qarşısında xidmətlər göstərib. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət həmişə dərin maraqla qarşılayıb. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə B.Vahabzadə yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil edib. Əbəs yerə deyilmir ki, Bəxtiyar Vahabzadə xalqın, sözün, dilin şairidir.

**Lamiyə SADİQOVA,**
*Bakı şəhəri E.Misirxanov adına 71 nömrəli tam orta ümumi təhsil məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

# Mütəxəssis yanaşması

## Müəllim amili əsas faktor kimi

Elm və təhsil naziri Emin Əmrullayevin son çıxışlarında təhsilin keyfiyyətinə dair verdiyi mesajlar ölkəmizin təhsil sistemində köklü dəyişikliklərə ehtiyac duyulduğunu bir daha gündəmə gətirib. Müəllimlərin peşəkarlığının artırılması, ibtidai təhsilin təkmilləşdirilməsi və ailələrin təhsilə olan yanaşmalarının inkişaf etdirilməsi kimi məsələlər bir yerdə məktəb və ailənin güclü əməkdaşlığını tələb edir. Əgər biz gələcəyin liderlərini yetişdirmək istəyiriksə, bu sahədəki dəyişikliklər artıq yalnız təhsil islahatı səviyyəsində deyil, həm də cəmiyyətin əsas təməllərini dəyişdirəcək bir proses kimi görülməlidir.

Nazir çıxışlarında təhsilverənlərin rolunun artırılması, məktəbin təsir dairəsinin genişlənməsi və təhsilə dair kollektiv yanaşmanın formalaşdırılması istiqamətində önəmli mesajlar verməklə müəllimlər üçün standartlarin əvvəlkilərdən daha yüksək olması zərurətini önə çəkir.

Beləliklə, bu mövzuların müzakirəsi bizi bir çox fundamental suallar qarşısında qoyur: Təhsilin gələcəyi üçün hansı təkmilləşdirmələrə ehtiyac var? Qeyd olunduğu kimi, gələcək illərdə təhsil sisteminin ən əsas mərhələsi olan ibtidai təhsildə keyfiyyəti artırmaq üçün nə kimi işlər görülməlidir? Müəllimlərin peşəkar inkişafını təmin edəcək mexanizmlər nə olmalıdır?

Bununla bağlı fikirlərini "Azərbaycan müəllimi" ilə bölüşən ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov deyir ki, müasir Azərbaycanın təhsil sistemində keyfiyyətin əsas təminat mexanizmi məhz müəllimin peşəkarlığıdır: "Son illər aparılan təhsil islahatları, yeni kurikulumların tətbiqi, rəqəmsal resursların genişlənməsi, şagirdyönümlü yanaşma və inklüziv təhsilin inkişafı göstərir ki, tədrisin səmərəliliyi müəllimin bilik və bacarıqlarından birbaşa asılıdır. Bu baxımdan müəllim üçün müəyyən edilən standartların əvvəlki dövrlə müqayisədə daha yüksək olması obyektiv zərurətə çevrilmişdir. Bugünkü məktəb müəllimlərdən yalnız bilik daşıyıcısı olmağı deyil, həm də planlaşdırma, tədqiqat, fərdiləşdirmə, qiymətləndirmə, kommunikasiya və rəqəmsal bacarıqlar kimi çoxşaxəli peşə kompetensiyalarının olmasını tələb edir. Bu isə təbii ki, yeni nəsil standartların hazırlanmasının zəruriliyini meydana çıxarır. Elm və təhsil nazirinin son çıxışlarında səsləndirdiyi tezislər təhsil sisteminin qarşısında dayanan əsas çağırışları çox dəqiq şəkildə əks etdirir. Bu gün müəllim üçün müəyyən olunan standartların yüksəldilməsi sadəcə idarəetmə qərarı deyil, təhsilin mahiyyətindən irəli gələn obyektiv zərurətdir. Müasir dövrün kompetensiya tələbləri əvvəlki illərdən köklü şəkildə fərqlənir və buna uyğun olaraq müəllimin bilik və bacarıqları da yeni reallığa cavab verməlidir. Təhsildə keyfiyyəti təmin edən əsas qüvvə müəllimdirsə, onun hazırlıq səviyyəsinin gücləndirilməsi sistemin bütün mərhələlərinə müsbət təsir göstərəcək".



### "Təhsil sistemində keyfiyyətin əsas təminat mexanizmi müəllimin peşəkarlığıdır"

#### "Pedaqoji ali məktəblərə qəbul mexanizmi yenilənməlidir"

Fərrux müəllim bildirir ki, müasir məktəblilər texnologiya ilə iç-içə böyüdüklərindən onların öyrənmə üslubları dəyişib, XX əsr bacarıqları hesab olunan tənqidi düşünmə, yaradıcılıq, əməkdaşlıq, rəqəmsal savadlılıq tədrisin mərkəzinə keçib. Bu reallıq müəllimdən innovativ metodlara, interaktiv və layihə əsaslı öyrənməyə, formativ qiymətləndirməyə bələd olmağı tələb edir. Qoyulan tələblərin hər biri müəllim hazırlığı ilə bağlı standartların dəyişdirilməsini və onun səviyyəsinin yüksəldilməsinin zəruriliyini ön plana çəkir.

Professorun sözlərinə görə, müasir Azərbaycan təhsilində ən ciddi problemlərdən biri ali məktəblərə qəbul mexanizmində müəllimlik ixtisaslarının seçilmə prinsipidir. Reallıq göstərir ki, pedaqoji ixtisasları bəzən müəllimliyi şüurlu seçim etməyən, digər ixtisaslara qəbul ola bilməyən abituriyentlər seçirlər. Abituriyentin pedaqoji qabiliyyəti, ünsiyyət və psixoloji hazırlığı, liderlik xüsusiyyətləri, uşaqlarla işləməyə meyli, peşə motivasiyası nəzərə alınmır: "Bu səbəbdən pedaqoji ali məktəblərə qəbul mexanizmi yenilənməli, müəllimlik ixtisasları üçün ayrıca seçim qaydası tətbiq edilməli, müəllimlik peşəsinə yüksək motivasiyalı gənclərin qəbulu həyata keçirilməlidir".

#### Keyfiyyətli ibtidai təhsil şagirdlərin ömürboyu öyrənmə bacarıqlarının formalaşmasında vacib şərtdir

Həmsöhbətimizin sözlərinə görə, ibtidai təhsil məktəblinin inkişafının ən həssas və əsas mərhələsi olmaqla, bütün təhsil sisteminin keyfiyyətini müəyyən edən strateji başlanğıc rolunu oynayır. Bu səviyyədə şagirdlərin idrak, sosial-emosional, nitq və məntiqi təfəkkür bacarıqları, həmçinin əsas savadlılıq kompetensiyaları formalaşır. Təhsilin sonrakı səviyyələri məhz bu baza üzərində qurulur. Təcrübə göstərir ki, ibtidai təhsil səviyyəsində keyfiyyət təmin edilmədikdə, şagirdlərin yuxarı siniflərdə akademik uğuru zəifləyir, öyrənmə və dərketmədə çətinlikləri yaranır, motivasiya çatışmazlığı baş verir. Bu səbəbdən də ibtidai təhsilin keyfiyyəti yalnız həmin səviyyə üçün deyil, ümumiyyətlə, şagirdlərin təhsilin bütün pillələrində akademik uğurlarının və ömürboyu öyrənmə bacarıqlarının formalaşmasının vacib şərti hesab olunur. Və bu məqam xüsusi nəzərə alınmaqla ilkin mərhələdə müəllimin pedaqoji ustalığı, metodik savadı və psixoloji hazırlığı daha yüksək standartlarla tənzimlənməli, məktəblər ibtidai təhsili strateji prioritet kimi görməlidir.

Fərrux müəllim söyləyir ki, keyfiyyətli ibtidai təhsil şagirdlərin akademik uğurlarını təmin etməklə yanaşı, onların sosial-emosional inkişafını təmin edir: "Keyfiyyətli ibtidai təhsil nəticəsində şagirdlərdə bütün fənlərin mənimsənilməsində təməl rolu oynayan oxu, yazı və riyazi savadlılıq formalaşır. Bu bacarıqlar şagirdin biliklərinin davamlı inkişafına zəmin yaradır. Oxu və riyazi savadlılıq şagirdlərdə analitik düşüncə, informasiyanı təhliletmə və problemləri həlletmə bacarıqlarının formalaşmasına kömək edir. Onlarda tənqidi və yaradıcı düşüncə formalaşır ki, bu da problemləri anlama, səbəb-nəticə əlaqələrini müəyyən etmə və məntiqi ardıcıllıqla düşünmə bacarıqlarını inkişaf etdirir, sosial-emosional səriştələr güclənir. Uşaqlar məktəb həyatında yaşıdları ilə əlaqələr qurmağı, qarşılıqlı əməkdaşlıq etməyi, məsuliyyəti bölüşməyi öyrənirlər ki, bu da onların şəxsiyyətinin inkişafına və sosial həyata uğurlu adaptasiyasına imkan verir. Öyrənməyə müsbət münasibət və motivasiyanın yaranması, məktəbə qarşı marağın formalaşması onların sonrakı təhsil səviyyələrinə psixoloji adaptasiyasını asanlaşdırır. V-XI siniflərdə uğurlu və davamlı inkişafını təmin edir, təhsil itkiləri azalır, şagirdlərin akademik nailiyyətləri daha yüksək olur və onlarda ömürboyu öyrənmə bacarıqları formalaşır. Bu da təhsil sisteminin davamlı inkişafını təmin edən vacib amildir. Deməli, ibtidai təhsilin məzmunun və tədrisinin keyfiyyətli təşkili yalnız müəyyən bir sinif üçün deyil, bütün təhsil prosesi boyunca şagirdin uğuruna və sosial-emosional inkişafına ciddi təsir göstərir, onda zəruri həyati bacarıqlar formalaşdırır".

#### Keyfiyyətin yüksəlməsinə mane olan səbəblər

Bəs, ibtidai təhsil mərhələsində çatışmazlıqlar nədən qaynaqlanır? Professor qeyd edir ki, ibtidai təhsildə problemlərin yaranması və keyfiyyətin aşağı olması çoxsaylı amillərlə bağlıdır. İbtidai təhsildə məzmunda və kurikulumda mövcud olan çatışmazlıqlar tədris prosesinin keyfiyyətinə birbaşa təsir göstərir. Məzmunun şagirdlərin yaş xüsusiyyətlərinə və psixoloji inkişaf səviyyəsinə tam uyğun gəlməməsi onların materialı mənimsəməsində, oxuyub anlamasında çətinlik yaradır. Çünki kiçik yaş dövründə şagirdlərin idrak imkanları məhdud olur. Nəzəri məlumatların çoxluğu şagirdlərin tətbiqetmə bacarığını zəiflədir ki, nəticədə öyrənmə formal xarakter daşıyır. Fənlərarası inteqrasiyanın yetərincə həyata keçirilməməsi şagirdlərin əldə etdiyi biliklər arasında məntiqi əlaqələrin qurulmasını çətinləşdirir. Nəticədə şagirdlərdə kompleks düşünmə və tətbiqetmə bacarıqlarının formalaşmasına mane olur.

İbtidai sinif müəllimlərinin davamlı peşə inkişafı mexanizmlərinin formalaşmaması da təhsilin keyfiyyətinə birbaşa təsir edən əsas problemlərdən biridir: "Vahid mərkəzdən idarəolunan, ardıcıl şəkildə həyata keçirilən peşə inkişafı sistemi olmadığından, müxtəlif layihələr və qısamüddətli təlimlər vasitəsilə müəllimlərin peşəkarlığının yüksəldilməsinə nail olmaq mümkün olmur. Halbuki müasir təhsil sistemində müəllim peşəkarlığının artırılması ən azı 2-3 ildən bir planlı, mərhələli və ehtiyaclara əsaslanan şəkildə həyata keçirilməli, təhsildə baş verən bütün yeniliklər hər bir ibtidai sinif müəlliminə operativ şəkildə çatdırılmalıdır. Qeyd edək ki, ibtidai sinif müəllimlərinin real təlim ehtiyaclarının araşdırılmaması və bu məsələnin sistemli tədqiqat obyektinə çevrilməməsi planlı peşə inkişafı modelinin qurulmasını daha da çətinləşdirir. Nəticədə, müəllimlərin təkmilləşdirilməsi, ixtisaslarının artırılması özlərinin təşəbbüslərinə əsaslanır. Ölkədə ibtidai sinif müəllimlərinin ixtisasının artırılması ilə bağlı vahid standartlar formalaşmadığından ibtidai təhsilin keyfiyyəti də ciddi risk altına düşüb".

Müsahibimizin sözlərinə görə, bir çox siniflərdə şagird sayının normadan artıq olması tədris prosesinin səmərəliliyini aşağı salır, fərdiləşdirilmiş və şagirdyönümlü təlimin təşkilini çətinləşdirir. Bundan əlavə, rəqəmsal resursların məhdudluğu, regionlarda internetə çıxış və texnologiya təminatındakı bərabərsizliklər də ibtidai siniflərdə təhsilin keyfiyyətinin yüksəldilməsinə mane olur. Həmçinin məktəblərdə inklüzivliyi təmin edə biləcək psixoloq, loqopedlərin çatışmazlığı şagirdlərin inkişaf çətinliklərinin vaxtında aşkarlanmasına və müvafiq dəstək proqramlarının həyata keçirilməsinə imkan vermir. Belə şəraitdə inklüziv və diferensiallaşdırılmış təlimin tələblərinə cavab vermək çətin olur. İnfrastruktur və resurs təminatının yaxşılaşdırılması ibtidai təhsilin modernləşdirilməsinin əsas şərtidir.

#### Valideynlərin pedaqoji hazırlığının zəif olması isə...

Təhsilin keyfiyyətinin formalaşmasında müəllimin peşəkarlığı ilə yanaşı, ailənin təhsilə yanaşması da ikinci vacib amildir. Professorun fikrincə, valideynlərin pedaqoji hazırlığının zəif olması da ibtidai təhsilin keyfiyyətinə təsir edən mühüm sosial-pedaqoji amillərdən biridir:"Bir çox ailələrin təlim prosesinə lazımi səviyyədə qoşulmaması, məktəb və müəllimlə əməkdaşlığın sistemli şəkildə qurulmaması uşağın öyrənmə motivasiyasını və inkişaf dinamikasını zəiflədir. Ev mühitində öyrənməni stimullaşdıran pedaqoji yanaşmaların və intellektual mühitin olmaması şagirdlərin tapşırıqları yerinə yetirməsi, oxu bacarıqlarının formalaşması və özünənəzarət kimi əsas bacarıqların inkişafına mane olur. Valideyn-məktəb əməkdaşlığında mövcud olan boşluqlar, ikincilərin məktəb tədbirlərində passiv iştirakı, müəllimlərlə müntəzəm əlaqə saxlamaması, uşağın təlim ehtiyacları barədə məlumatlanmaması da təhsilin keyfiyyətinə mane olan amillərdəndir. Üstəlik, səriştəli valideynlik modelinin formalaşmaması və pedaqoji maariflənmənin kifayət qədər aparılmaması valideynlərin övladlarının təhsil fəaliyyətinə adekvat dəstək göstərməsini çətinləşdirir. Əksər hallarda dərs qurtaran kimi valideynlər uşaqlarını məktəbdən tələsik şəkildə aparır, məktəbdə onların sosiallaşmasına, dərsdənkənar fəaliyyətlərdə iştirakına imkan vermirlər.

Əslində valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi, ailə-məktəb əməkdaşlığının gücləndirilməsi və səriştəli valideyn hazırlığı sisteminin təşkil olunması təhsilin keyfiyyətinin təminində əsas şərtlərdən biridir.

Bilirsiniz, təhsildə dönüş yaratmaq üçün üç sütun eyni anda möhkəmlənməlidir: müəllimin peşəkarlığı, ibtidai təhsilin keyfiyyəti, ailədə təhsil mədəniyyəti. Bu üçlüyün hər hansı birinin zəifləməsi bütöv sistemin dayanıqlığını pozur. Elm və təhsil nazirinin son çıxışlarında bu istiqamətlərin kompleks şəkildə vurğulanması çox pozitiv addımdır və ölkənin təhsil inkişaf strategiyası üçün düzgün istiqamət hesab olunmalıdır".

**Samirə KƏRİMOVA**

SON günlər müəllimlərin əməkhaqlarının iş saatına əsaslanaraq yenidən tənzimlənməsi barədə müzakirələr təhsil gündəminin əsas mövzularından birinə çevrilib. Təklif olunan tam ştatlı müəllim modelinin tam mexanizmi hələ müzakirə mərhələsində olsa da, elm və təhsil naziri Emin Əmrullayevin son çıxışı bu prosesin ümumi istiqamətlərini daha aydın göstərdi. Burada əsas nüans müəllimin məktəbdə həyata keçirdiyi çoxsaylı pedaqoji fəaliyyətin vahid çərçivədə qiymətləndirilməsi və məktəblərin bu yükə uyğun təşkilatlanmasıdır.



## Tam ştatlı müəllimlər dərsdən sonra nə ilə məşğul olacaqlar?

#### "Müəllimin fəaliyyəti yalnız dərs deməklə yekunlaşmır"

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, BDU-nun professoru Hikmət Əlizadə "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, müəllimin fəaliyyəti yalnız dərs deməklə yekunlaşmır, onlar pedaqoji fəaliyyət çərçivəsində məktəbdə müxtəlif işlər həyata keçirməlidirlər: "Müəllimlərin fəaliyyətinin iş saatına görə tənzimlənməsi maraqlı yenilikdir. Bu modelə görə, "tam ştatlı müəllim" anlayışı meydana çıxır. Yeni təklif olunan modelin mexanizmi hələ tam açıqlanmasa da, elm və təhsil nazirinin son açıqlaması yeni model haqqında mücərrəd təsəvvürlərin konkretləşməsinə kömək etdi.

Ümumiyyətlə, müəllimlər məktəbdə peşəkar inkişaflarını artırmaq məqsədilə bir-birilərinin dərsində iştirak etməlidirlər. Bu zaman onlar bir-birlərinin təcrübələrini öyrənmək imkanı əldə edirlər. Uzunmüddətli pedaqoji təcrübəmə əsasən, qeyd edə bilərəm ki, hər bir müəllimin dərsində özünəməxsusluq olur, təcrübələrin paylaşılması bu baxımdan məqsədəuyğundur. Sadəcə olaraq bir məsələyə diqqət etmək lazımdır. Müəllimlər bir-birilərinin dərsində nöqsan axtarmaq üçün deyil, təcrübələrini bölüşmək üçün iştirak etdikdə uğur qazana bilərlər.

Fənn metodbirləşmə üzvləri öz ixtisasları üzrə yeni pedaqoji məsələləri bir yerdə müzakirə etməyə geniş yer verməlidirlər. Bu gün pedaqoji yeniliklər o qədər sürətlə çoxalır ki, müəllimlərin onların hamısını əxz etməsi sadəcə olaraq mümkün deyil. Eyni fənn müəllimlərinin bir yerdə həm elmi, həm də pedaqoji yenilikləri müzakirə etməsi təcrübələrin bölüşdürülməsi kontekstində mühüm əhəmiyyət kəsb edir. Hətta müxtəlif fənn müəllimlərinin də bir yerdə hər hansı bir problemi müzakirə etməsi məqsədəuyğundur. Bu, onların həm dünyagörüşünün artması, həm də təlim prosesində interdisiplinar paradiqmanın reallaşması baxımından müsbət nəticə verə bilər".

#### Bir müəllim çox işləyir, digəri isə...

Professor qeyd edir ki, müəllimlər pedaqoji fəaliyyətlərində qeyd olunan məsələlərdən əlavə, müxtəlif könüllü işlər görürlər, lakin bu, iş saatına daxil olmadığı üçün pərakəndə xarakter daşıyır: "Müəllimlər dərsdən sonra şagirdlərlə sinifdənxaric işlər həyata keçirməlidirlər. Dərsdən sonra müxtəlif məzmunlu tədbirlərin təşkil edilməsi həm şagirdlərin təlim maraqlarının və dünyagörüşünün artmasına, həm də tərbiyəlilik keyfiyyətlərinin formalaşmasına xidmət edə bilər. Müasir təlim konsepsiyalarının tələblərinə görə, məktəbdə həm öyrədici, həm tərbiyəedici, həm də inkişafetdirici mühit yaratmaq lazımdır ki, şagird bu mühitdə inkişaf etsin, formalaşsın, sosiallaşsın.

Müəllimlər bu gün öz pedaqoji fəaliyyətlərində qeyd olunan məsələləri həyata keçirirlər. Bundan əlavə, onlar şagirləri olimpiadalara, yarışlara, festivallara və s. hazırlayırlar. Amma bu fəaliyyətlər könüllü həyata keçirilir. Onlar müəllimlərin iş saatına daxil olmadığı üçün pərakəndə xarakter daşıyır. Bir müəllim çox işləyir, digəri isə... Görülən işin nəticəsi bu səbəbdən yüksək olmur. Müəllimlərin pedaqoji fəaliyyətini daha səmərəli təşkil etməyin zamanı yetişib. Bu istiqamətdə tam ştatlı müəllimlərin yaradılması fikrini təqdir edirəm. Təbii ki, yeni modelin tətbiqi mərhələli həyata keçirilməlidir. Bu istiqamətdə ilk olaraq 20 min tam ştatlı müəllim vəzifəsinin təsis edilməsi də məqsədəuyğundur".

#### Bu məktəblərin şagirdlərinin nəticələri daha yüksək olur

H.Əlizadənin sözlərinə görə, dövlət məktəblərindən fərqli olaraq özəl məktəblərdə müəllimlərin dərsdən sonra fəaliyyət göstərməsi üçün kifayət qədər resurs olduğundan şagird uğurları da yüksəkdir: "Yeni modelə əsasən, müəllimlər həftəlik 30-36 saat işləyəcəklər. Bu vaxtın 18-24 saatını tədrislə məşğul olacaqlar. İş günü ilə tədris saatının vaxt fərqi 12 saat edir. Həmin müddət ərzində müəllim tədrisdən əlavə pedaqoji işlərlə məşğul ola bilər.

Daha bir vacib məsələ diqqətdən yayınmamalıdır: Bizdə olan məlumata görə, hazırda məktəblərin mütləq əksəriyyəti ikinövbəlidir. Bu isə o deməkdir ki, gün ərzində məktəbin bütün sinif otaqlarında dərs keçirilir. Belə olan halda "müəllimlər dərsdən sonra harada oturub işləyə bilərlər?" sualı meydana çıxır. Bütün məktəblərdə yalnız bir müəllimlər otağı var ki, müəllimlərin hamısının orada fəaliyyətlərini səmərəli təşkil etməsi mümkün deyil.

Özəl məktəblərdə bu istiqamətdə vəziyyət daha məqsədəuyğundur. Həmin təhsil müəssisələrində müəllimlər iş saatlarında məktəbdə olur, müxtəlif pedaqoji fəaliyyətlər yerinə yetirirlər. Bu məktəblərdə müəllimlərin dərsdən sonra fəaliyyət göstərmələri üçün kifayət qədər resurslar var. Özəl məktəblərdə şagird uğurlarının yüksək olmasının səbəblərindən birini burada axtarmaq lazımdır. Dövlət məktəblərində isə şagird sıxlığı müşahidə olunur. Burada müəllimlərin dərsdən sonra fəaliyyət göstərmə imkanları məhduddur.

Elm və təhsil naziri nitqində bu məsələyə də aydınlıq gətirib, tam ştatlı müəllimlər üçün iş şəraitinin yaxşılaşdırılması məsələsinin aktual olduğunu vurğulayıb. Təbii ki, bu məsələ artıq məktəb direktorlarının öhdəsinə düşür. Onlar məktəbdə pedaqoji işi düzgün təşkil edə bilərsə, tədricən bu problem öz həllini tapa bilər.

Ölkəmizdə təhsil sahəsində aparılan islahatların yeni mərhələsi başlayır. Bu günə qədər görülmüş işləri təhlil edəndə uğurlarla yanaşı, çatışmazlıqların da olduğunu görürük. Hesab edirəm ki, həyata keçirilən islahatların yeni mərhələsinin daha səmərəli olması üçün hər bir məktəb işçisi ciddi təhlillər aparıb yeniliklərin səmərəli həlli yollarını tapa bilərlərsə, daha böyük uğurlar əldə edə bilərik", - deyə sədr bildirib.

**Mərziyyə KAZIMZADƏ**

# Qadın şahmatçılarımızdan tarixi nəticə

Azərbaycanın qadın şahmatçılardan ibarət millisi İspaniyanın Linares şəhərində təşkil olunan dünya çempionatında ikinci olub.

Millimiz həlledici matçda Beynəlxalq Şahmat Federasiyasının (FIDE) komandası ilə üz-üzə gəlib.

Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Xanım Balacayeva, Gülnar Məmmədova və Ayan Allahverdiyevadan ibarət komandamız ilk görüşdə 1:3, ikinci qarşılaşmada isə 1,5:2,5 hesabı ilə uduzub.

Qeyd edək ki, millimizin kapitanı İlahə Qədimovadır. İndiyədək kişi və qadın şahmat komandalarımız dünya çempionatında medal qazanmayıb. Bu, tarixi nəticədir.

**Nəzrin XƏLİLOVA**



**Şahmat üzrə millimiz ilk dəfə dünya çempionatında gümüş medal qazanıb**

**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003
**Tiraj:** 36158 **Sifariş:** 2450
**Məsul növbətçi:** S.Kərimova

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

## BAKI SLAVYAN UNİVERSİTETİ

dekan vəzifəsini tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

1. Sosial elmlər və Regionşünaslıq fakültəsi üzrə - 1 yer
2. Şərqi Avropa və Balkanşünaslıq fakültəsi üzrə - 1 yer

**Qeyd:** müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər yalnız 1, 4, 5, 6, 7 və 8-ci bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):

1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil haqqında diplomun surəti;
5. Elmi dərəcə haqqında diplomun surəti;
6. Elmi ad haqqında diplomun surəti;
7. Elmi və elmi metodiki işlərin siyahısı;
8. Fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi 33.
**Telefon:** (012) 599-08-70, daxili nömrə - 208

**REKTORLUQ**

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

## MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

vakant yerlər üzrə aşağıdakı qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

**“Humanitar fənlər” kafedrası üzrə:**
*Baş müəllim - 2 yer.*

**“Xarici dillər” kafedrası üzrə:**
*Baş müəllim - 1 yer.*

**Qeyd:** Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq, sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Ünvan:** Mingəçevir şəhəri, AZ 4500, D.Əliyeva küçəsi 21.
**www.mdu.edu.az, e-mail:** info@mdu.edu.az
**Telefon:** (02427) 7-32-72.

**REKTORLUQ**

# Etibarsız sayılır

**Bakı Slavyan Universiteti** nəzdində Məktəb-Lisey Kompleksin IX sinfini 2023-cü ildə bitirmiş Məmmədov Səid Eldar oğluna verilmiş C-767906 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Nağıyev Ceyhun Rövşən oğluna verilmiş E-842282 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2005-ci ildə Şevçuk Anna Vladimir qızına verilmiş B-033234 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 16 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Hüseynova (Muradlı) Nəcibə Azər qızına verilmiş A-061036 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Musayev Zahid Kamil oğluna verilmiş E-012626 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Yuxarı Aran qəsəbə tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Quluzadə Rəvan Hüseyn oğluna verilmiş E-305576 nömrəli tam orta təhsil haqqına attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2022-ci ildə Aghapour Ghadımınezhad Amırata Esmaeılə 2022-ci ildə verilmiş AT-009146 nömrəli əsas baza ali tibb təhsili diplomu və diploma əlavə və 2017-ci ildə verilmiş TN-011862 nömrəli hazırlıq kursunu bitirmək haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2021-ci ildə Alızadeh Mahmoud Davouda verilmiş AT-009160 nömrəli əsas baza ali tibb təhsili diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 21 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Əhmədov Eyvaz Qurban oğluna verilmiş E-492415 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Qurbanəfəndi kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Səmədov Elxan Əsgər oğluna verilmiş A-00527 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Əhmədova Nərmin Ülvi qızına verilmiş C-069162 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Görədil kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Muradzadə Cəfər Mehman oğluna verilmiş E-166898 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 8 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Qurbanova (İsmayılova) Gülsüm Əkrəm qızına verilmiş 107103 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Gülməmmədova Gülüşən Ağamirzə qızına verilmiş E-035157 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Yuxarı Zeyxur kənd tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Murad Rahim oğluna verilmiş E-495224 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Hacıyev Eynur Ələkbəroviçə verilmiş B-664067 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** İmamqulukənd kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Abdurzayev Cavad Qəzəhməd oğluna verilmiş C-041859 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Həzrə kənd tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Rəhimxanova Firəngiz Müzəffər qızına verilmiş A-000700 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Navahı qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Baxşiyev Ramal Fərəc oğluna verilmiş C-787948 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Səfərova (Dadaşova) Vüsalə Aləddin qızına verilmiş 274541 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 144 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Məmmədova (Piriyeva) Aynur Qədir qızına verilmiş A-006507 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2000-ci ildə Hüseynov Vadim Vladimiroviçə verilmiş A-064697 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1995-ci ildə Babayev Faiq Zakir oğluna verilmiş AB-I-023274 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Əmirova Səbinə Həsənağa qızına verilmiş B-121914 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 38 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Əhmədzadə Hacıhüseyn Ceyhun oğluna verilmiş C-754098 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2024-cü ildə Əlizadə Nərgiz Ceyhun qızına verilmiş C-253181 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 63 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Gülməmmədov Azər Bəxtiyar oğluna verilmiş A-114784 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Qaçaq Kərəm kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Nuriyeva Akifə Oqtay qızına verilmiş B-685562 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** (Azərbaycan Memarlıq və İnşaat Universiteti) tərəfindən 1991-ci ildə Musayeva Təranə Sabir qızına verilmiş TB-I-090416 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş İsmayılova Ülviyyə Həmid qızına verilmiş A-533670 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Novruzlu Ülviyyə Əlabbas qızına verilmiş A-879861 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 161 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Quliyeva Fəridə Elşad qızına verilmiş A-439495 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Dədə Qorqud kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Abbasov Fəxrəddin Yavər oğluna verilmiş 567526 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qarabağlı kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Əzizova (Gülnəzərova) Günay Füzuli qızına verilmiş A-206598 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2024-cü ildə İmaməliyev Fərid Kərim oğluna verilmiş C-216051 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Qarağacı kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Yusibova Göyçək Fikrət qızına verilmiş A-544081 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Mamusta kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Mahmudzadə Əli Məhərrəməli oğluna verilmiş A-168339 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Araz qəsəbə tam orta məktəbi 2005-ci ildə bitirmiş Rumzadə Fuad Faiq oğluna verilmiş A-591271 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Məmmədova (Quliyeva) Ramilə Xanbaba qızına verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** N.Tusi adına təbiət və texniki təmayüllü məktəb-liseyin IX sinfini 2006-cı ildə bitirmiş Cəfərova Aynur Telman qızına verilmiş A-419105 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 2 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Novruzov Cavid Elşad oğluna verilmiş A-543673 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 260 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Hüseynova (Qələndərova) Vüsalə Azər qızına verilmiş A-280996 nömrəli ümumi təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 46 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Zahidov Eldar Elnar oğluna verilmiş E-550574 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2023-cü ildə İbrahimova Aysel Azər qızına verilmiş C-171661 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Piyadalar kənd əsas məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Nəsibova (Həsənova) Tünzalə Tahir qızına verilmiş 341652 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Həsənova (Abbasova) Ülviyə Suliddin qızına verilmiş 175274 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 282 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Yəhiyayev İlham Abil oğluna verilmiş B-557795 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 16 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Şirinov Anar Ədalət oğluna verilmiş A-696817 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Qaraqoyunlu kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Həsənova (Ələsgərova) Yeganə Umudvar qızına verilmiş A-088369 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 16 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Mehdiyeva Elvira Taleh qızına verilmiş C-043260 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əhdzadə Günel Möhlət qızına verilmiş E-199505 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.